Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Beşinci sessiya
Payız

49-cu cild

21 noyabr 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# V SESSİYASI İCLASININ

# PROTOKOLU № 50

*Milli Məclisin iclas salonu.*
*21 noyabr 2025-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 112 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 109 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Sahil Babayev**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Teymur Musayev**, Azərbaycan Respublikasının səhiyyə naziri.

**Elnur Əliyev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini.

**Rəşad İsmayılov**, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin birinci müavini.

**Cavid Qurbanov**, Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**Samir Vəliyev**, Azərbaycan Respublikası energetika nazirinin müavini.

**Himalay Məmişov**, Azərbaycan Respublikası maliyyə nazirinin müavini.

**Murad Hüseynov**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**İndira Hacıyeva**, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini.

**Kənan Kərimzadə**, Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini.

**Rəşad Mustafayev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Elçin Zeynalov**, Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini.

**Elşad Əliyev**, Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini.

**Ramin Məmmədov**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

**Zaur Əliyev,** Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri.

**Yusif Yusifov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Bəhruz Quliyev**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini.

**Əziz Şərifov**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini.

**İlham Bayramov**, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini.

**Natiq Hümmətov**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini.

**Əli Əhmədov**, Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini.

**Vüqar İbrahimov**, Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.

**Vüsal Qasımlı**, Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru.

**Zəka Mirzəyev**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu İdarə Heyətinin sədri.

**Sadiq Əliyev**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri.

**Samirə Musayeva**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

**Xəqani Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri.

**Toğrul Quliyev**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi siyasət şöbəsinin müdiri.

**Nicat İmanov**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin rəisi.

**Elşən Rəhimli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin İqtisadi təhlil və proqnozların icrasına nəzarət baş idarəsinin rəisi.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Rövşən Namazov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin idarə rəisinin müavini.

**İbrahim Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Mətbuat xidmətinin rəhbəri.

**Seyfəddin Talıbov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının şöbə müdirinin müavini.

**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**Samir Seyidəhmədli**, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
2. Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
3. İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
4. Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
5. Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının sta-

tusu haqqında”, “Sosial sığorta haqqında”, “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında”, “Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında”, “Tibbi sığorta haqqında”, “Dövlət rüsumu haqqında”, “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında”, “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında”, “Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında”, “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında”, “Uşaqların icbari dispanserizasiyası haqqında”, “Gömrük tarifi haqqında”, “Nağdsız hesablaşmalar haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. Azərbaycan Respublikası Milli Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

8. Azərbaycan Respublikası Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**1. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında”, “Sosial sığorta haqqında”, “Hərbi**

**qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Əli Hüseynli, Musa Quliyev, Arzu Nağıyev, Əhliman Əmiraslanov, Zaur Şükürov, Hicran Hüseynova, Qüdrət Həsənquliyev, Göydəniz Qəhrəmanov, Azər Badamov, Siyavuş Novruzov, Razi Nurullayev, Bəhruz Məhərrəmov, Rəşad Mahmudov, Aydın Hüseynov, Tahir Mirkişili, Vüqar Bayramov, Zahid Oruc, Soltan Məmmədov, Səyyad Aran, Elçin Mirzəbəyli, Vüqar Rəhimzadə, Sahil Babayev, Elnur Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikası Milli Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Firudin Hacıyev

**3. Azərbaycan Respublikası Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar İbrahimov

**Cari məsələnin müzakirəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*21 noyabr 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli hökumət üzvləri, hörmətli deputatlar, hamınızı xoş gördük. Media nümayəndələrini də salamlayıram.

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 109 |
| Yetərsay | 83 |

İclasa başlaya bilərik.

Hörmətli həmkarlar, biz iclasımıza davam edirik. Dünən biz 5-ci məsələni bitirdik. İndi isə gündəliyin 6-cı məsələsinə keçirik. Bu məsələ, bildiyiniz kimi, Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunda və digər 15 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində

baxılmışdır. Ona görə mən komitə sədri hörmətli Azər müəllim Əmiraslanova söz vermək istəyirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, hörmətli hökumət üzvləri! Vergi Məcəlləsinə və əlavə 16 qanunvericilik aktına dəyişikliklər edilməsini nəzərdə tutan bu layihə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında geniş müzakirə olunmuşdur. Aidiyyəti qurumlar tərəfindən əhatəli təqdimatlar edilmişdir. Komitə üzvləri layihəni dəstəkləməklə yanaşı, gələcəkdə vergi siyasətinin təkmilləşdirilməsinə dair dəyərli fikirlər və təkliflər səsləndirmişlər.

Bu gün müzakirəyə çıxarılan layihə birinci oxunuşun tələblərinə uyğun olaraq təqdim edilir. Vergi Məcəlləsinə dəyişikliklər 2026-cı ilin büdcə zərfinin əsas tərkib hissəsi olaraq büdcənin parametrləri ilə bilavasitə bağlıdır. Bu dəyişikliklər biznes və vətəndaşlar üçün nə vergi yükünü artırır, nə qeyri-stabillik yaradır, nə də biznesin planlaşdırılmasını çətinləşdirir. Əksinə, yeni sahələr üzrə təşviqlərin verilməsini, vergi yığımı bazasının genişləndirilməsini nəzərdə tutur.

Layihədə nəzərdə tutulan dəyişikliklər ölkənin iqtisadi inkişafını sürətləndirmək, kölgə iqtisadiyyatı ilə mübarizə tədbirlərini gücləndirmək, daxili bazarı qorumaq və idxaldan asılılığı azaltmaq, strateji sahələrə investisiyaların təşviqi və inzibatçılığın təkmilləşdirilməsi üzrə istiqamətləri nəzərdə tutur. Vergi Məcəlləsinə dəyişikliklər, ilk növbədə, qeyri-neft özəl sektorda əməkhaqqı gəlirləri üzrə fiskal yükün tənzimlənməsi ilə bağlıdır.

Məlum olduğu kimi, 2019-cu ildən qeyri-neft sektoru-

nun özəl bölməsində muzdla işləyən şəxslərin aylıq gəlirlərinə vergi və sosial sığorta haqları üzrə güzəşt mexanizmi tətbiq edilir. Aparılmış islahatın məqsədi sahibkarlar və işəgötürənlər üçün əlverişli vergi-investisiya mühitinin yaradılması, işçi sayının və əməkhaqqının əhəmiyyətli leqallaşması olmuşdur. İslahatlar nəticəsində qeyri-neft və qaz sektorunun özəl bölməsi üzrə əmək müqavilələrinin sayında iki dəfəyədək, əməkhaqqı fondunda isə iki dəfədən çox artımlar əldə edilmişdir.

2026-cı ildə güzəşt dövrü başa çatır və gəlir vergisi 2500 manatadək gəlirlər üzrə 14 faiz, 2500 manatdan artıq gəlirlər üzrə isə 25 faiz tətbiq olunmalıdır. Ancaq Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər 2019-cu ildən əvvəlki vergi dərəcələrinin olduğu kimi yenidən bərpasını deyil, yeni güzəştli rejimin tətbiqini nəzərdə tutur. Belə ki, 2500 manatadək gəliri olan şəxslər üzrə gəlir vergisi 14 faiz əvəzinə, 2026-cı ildə 3 faiz, 2027-ci ildə 5 faiz, 2028-ci ildən isə 7 faiz dərəcə ilə tətbiq ediləcək. Nəticədə, bu, region ölkələri arasında ən aşağı göstərici olacaqdır. Bu addım sahibkarlara və işçilərə yeni vergi qaydalarına rahat uyğunlaşmağa kömək edəcək.

Layihədə işğaldan azad edilmiş ərazilər üzrə müəyyən edilmiş vergitutma rejiminin eyni ilə Naxçıvan Muxtar Respublikasına da şamil edilməsi nəzərdə tutulur. Belə ki, 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət, əmlak, torpaq, sadələşdirilmiş vergidən azadetmə tətbiq ediləcək. Bu dəyişikliyin məqsədi Naxçıvan Muxtar Respublikasında iqtisadi fəallığın artırılması, investisiyaların cəlbi, məşğulluq səviyyəsinin və rifahın yüksəldilməsidir.

Dəyişikliyə əsasən həm də muxtar respublikada sığortaedənlər tərəfindən işçilərə görə ödənilən məcburi dövlət

sosial sığorta haqlarının subsidiyalaşdırılması təklif olunur.

Yerli avtomobil sənayesinin dəstəklənməsi üçün də müvafiq güzəştli vergi rejimi tətbiq ediləcəkdir.

Təklif olunan dəyişiklikdə balıqçılıq (balıq kürüsünün istehsalı istisna olunmaqla) kənd təsərrüfatı məhsullarının istehsalına aid edilməklə aqrar sahəyə verilən güzəştlər balıqçılığa da şamil ediləcəkdir.

Media sahəsinə dəstəyin davam etdirilməsi məqsədi ilə növbəti 3 il ərzində də media subyektlərinə verilmiş vergi güzəştlərinin müddətinin uzadılması nəzərdə tutulur.

Layihədə rezident fiziki şəxslərin xaricdən əldə etdikləri dividend gəliri üzrə vergi dərəcələrinin 14 faizdən 5 faizə endirilməsi təkliflər sırasındadır. Bu, bir tərəfdən, xaricdən əldə edilən gəlirlərin könüllü şəkildə bəyan olunmasını təşviq edəcək, digər tərəfdən də, xaricdə yerləşən maliyyə vəsaitlərinin və investisiyaların Azərbaycana yenidən köçürülməsi üçün əlavə stimullar yaradacaq.

Kirayə bazarı üzrə "ağarma"ya və könüllü əməletməyə nail olmaq məqsədi ilə fiziki şəxslərə məxsus, sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan yaşayış sahələrinin kirayə haqları üzrə vergi dərəcəsinin optimallaşdırılaraq 14 faizdən 10 faizə endirilməsi təklif olunur.

Nağdsız əməliyyatların stimullaşdırılması və kölgəyə qaçışı azaltmaq məqsədi ilə ictimai iaşə fəaliyyəti sahəsində ƏDV və sadələşdirilmiş vergi üzrə güzəştlərin verilməsi nəzərdə tutulur, yəni əlavə dəyər vergisi qeydiyyat öhdəliyi yaradan 200 min manatlıq dövriyyə həddinin pərakəndə ticarət və vergi orqanında uçotda olmayan şəxslərə göstərilən xidmətlər üzrə nağdsız ödəmələrə münasibətdə 2 dəfə artırılması təklif edilir. Bununla da ƏDV qeydiyyat həddinin maksimum 400 min manata çatdırılması nağdsız dövriyyəni stimullaşdırır və kiçik biznes üçün

vergi yükünü azaldır.

ƏDV qeydiyyatında olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən onların nağdsız qaydada POS-terminal vasitəsi ilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsinin 50 faizinin ƏDV tutulan ümumi dövriyyədən çıxılması, habelə sadələşdirilmiş verginin ödəyicisi olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən nağdsız dövriyyə üzrə vergi dərəcəsinin 8 faizdən 6 faizə endirilməsi təklif olunur.

Kölgə iqtisadiyyatının miqyasının böyük olduğu fəaliyyət sahələrində dövriyyələrin şəffaflaşdırılmasını, nağdsız əməliyyatların stimullaşdırılmasını və bu sahədə vətəndaşların birbaşa iştirakını təmin etmək məqsədi ilə əlavə dəyər vergisi, yəni "ƏDV geri al" mexanizminin tətbiqi dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

Hazırda yalnız mineral gübrələrin idxalı və satışı ƏDV-dən azaddır. Artıq yeni dəyişikliklərə əsasən eyni güzəştin orqanomineral gübrələr üçün də tətbiqi təklif olunur.

2025-ci ildən etibarən dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində fəaliyyət göstərən özəl tərəfdaşlara və layihə şirkətlərinə gəlir, mənfəət, torpaq və əmlak vergiləri, həmçinin idxalda ƏDV və gömrük güzəştləri verilmişdir. İndi isə layihənin üçüncü tərəfi hesab olunan dövlət-özəl tərəfdaşlığı müqaviləsi çərçivəsində özəl tərəfdaş və ya layihə şirkətinin tikinti işlərinə cəlb etdiyi podratçılara idxalda ƏDV və gömrük güzəştlərinin şamil edilməsi təklif olunur.

"Gömrük tarifi haqqında" Qanuna dəyişikliklə bağlı layihədə əlavə dəyər vergisindən azadolmalarda olduğu kimi, Naxçıvan Muxtar Respublikasında sənaye və texnologiyalar parklarının rezidentləri və investisiya

təşviqi sənədi almış şəxslər tərəfindən idxal olunan mallar üzrə, müdafiə və dövlət təhlükəsizliyi məqsədləri üçün istifadə olunan bütün növ texnika və texniki vasitələrin, onların ehtiyat hissələrinin, xüsusi proqram təminatlarının və silah-sursatın, dövlət-özəl tərəfdaşlığı layihələri üzrə texnika və avadanlıq, ölkədə istehsal olunan yük avtomobillərinin ehtiyat hissələrinin idxalı üzrə gömrük rüsumlarından azadolma təklif olunur.

"Nağdsız hesablaşmalar haqqında" Qanuna dəyişiklik layihəsində həmin qanunun 3.5-ci maddəsində vergi ödəyicisi olmayan fiziki şəxslərdən nağd qaydada satın alınan malların siyahısına "tullantı yağları"nın əlavə edilməsi təklif edilir.

Həmçinin "Sosial sığorta haqqında" Qanuna dəyişikliklər edilməklə fərdi sahibkarların sosial sığorta yükünün tənzimlənməsi nəzərdə tutulur. Təklif olunan yeni modelə əsasən bütün fərdi sahibkarlar dövriyyədən 2 faiz dərəcə ilə məcburi dövlət sosial sığorta haqqı ödəyir. Bu zaman minimum hədd minimum aylıq əməkhaqqının 15 faizi həddində, maksimum hədd isə minimum əməkhaqqının bir misli, yəni 400 manat həddində nəzərdə tutulur.

Mən, eyni zamanda, təqdim olunmuş dəyişikliklər çərçivəsində büdcə gəlirlərinin tənzimlənməsi ilə bağlı nəzərdə tutulan tədbirləri də qeyd etmək istərdim. Bu çərçivədə alkoqollu içkilərdə və tütün məhsullarında aksiz artımları, mobil cihazlara aksizlərin tətbiqi də nəzərdə tutulur. Biz hesab edirik ki, təqdim olunan paket ölkəmizdə iqtisadi fəallığın artırılmasını, kölgə iqtisadiyyatının məhdudlaşdırılmasını, vergi-büdcə sistemində sadəliyi və şəffaflığı, daxili istehsalın və ixracın stimullaşdırılmasını təmin edəcəkdir. Məhz bu səbəbdən qeyd edilənləri nəzərə alaraq, təqdim edilmiş qanun layihəsinin birinci oxunuşda

qəbul edilməsinin dəstəklənməsini hörmətli həmkarlarımızdan xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim, ətraflı məlumat verdiniz. Ancaq bir məqamı dəqiqləşdirək. 17 qanunda dəyişiklik edilib. Mən onların ikisinin adını çəkdim. Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunda və dedim ki, digər 15 qanunda. Siz isə deyəndə bir qanunun adını çəkdiniz və 16 qanunda dəyişiklik dediniz. Sadəcə, eşidilən rəqəmlər olur. Ona görə də mən bunu dəqiqləşdirdim. 17 qanunda dəyişikliklər olub. Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə daha 6 komitədə baxılıb. İndi mən həmin komitələrin rəhbərlərinə söz verəcəyəm. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Hörmətli Əli Hüseynli, buyurun, komitənin rəyini bildirin.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Biz hörmətli Azər müəllimin geniş məruzəsini dinlədik. Bu layihələr büdcə paketinə daxildir, əsasən, Vergi Məcəlləsinə edilən dəyişikliklərdir və artıq söylədiyiniz kimi, digər qanun layihələrinə edilən əlavələr və dəyişikliklərdir. Bütövlükdə, bu paket layihə ilə bağlı söyləmək istəyirəm ki, həqiqətən, çox mütərəqqi bir layihədir. Layihələr vergi güzəştlərinin bir sıra hallarda əlavə edilməsini, bir sıra hallarda isə aradan qaldırılmasını çox əsaslandırıb, layihənin də yazılı əsaslandırılması bütün sualların cavablarını vermiş olur. O ki qaldı sırf bizim komitənin profilinə aid olan iki layihəyə, həm "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunda, eyni zamanda, məh-

kəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari sığortası ilə bağlı layihədə redaktə xarakterli dəyişikliklərdir. “Müharibə ilə əlaqədar əlilliyin müəyyən edilməsi” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

İkinci komitə Əmək və sosial siyasət komitəsidir. Komitənin sədri hörmətli Musa Quliyevdən xahiş edəcəyəm, komitənin rəyini bildirsin. Buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və digər 16 qanuna edilən dəyişikliklər barədə hörmətli həmkarım Azər müəllim ətraflı məlumat verdi. Bizim komitədə də həm Vergi Məcəlləsinə, həm də komitənin profilinə uyğun olan digər qanunlara dəyişikliklər geniş müzakirə olunubdur. Bu qanunun qəbul olunması həm də iqtisadiyyatda vergi və sosial sığorta münasibətlərində yeni bir yanaşma rejimini tətbiq edir. Bu, həm güzəştli, həm də diferensial bir yanaşmadır. İqtisadiyyatımızın inkişafına, vergi və sosial sığorta münasibətlərinin daha da şəffaflaşmasına, eləcə də sosial ədalətin təmin olunmasına xidmət edən çox uğurlu bir layihədir. Komitədə layihə bəyənilmişdir və Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir, rəy müsbətdir. Səsə qoyulmasını və dəstəklənməsini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Üçüncü komitə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsidir. Komitənin sədri məlumat verəcək. Hörmətli Arzu Nağıyev, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli qonaqlar, media nümayəndələri. Azər müəllim layihə ilə bağlı ətraflı məlumat verdi. Komitəmizin profilinə uyğun olan dəyişiklik 4-cü maddədədir. "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 8-1.2.3-cü maddəsində dəyişikliklə bağlıdır. Bu, sığorta vəsaitlərinin istifadəsi ilə bağlıdır. Belə ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan, qurum tərəfindən müəyyən edilən hallarda müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin müəyyənləşdirilməsində "müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözlərlə əvəz edilir. Layihə, bütövlükdə, komitədə müzakirə olunub və yekdilliklə birinci oxunuşda plenar iclasda baxılmağa tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Növbəti komitə Səhiyyə komitəsidir. Komitənin sədri hörmətli Əhliman müəllim, buyurun, məlumat verin.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, qonaqlar. Səhiyyə komitəsinin profilinə uyğun olan 4 qanun layihəsi komitəmizdə də geniş müzakirə olunmuşdur. Səhiyyə komitəsinin qanun layihələri ilə bağlı rəyi müsbətdir, səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim.

İndi isə Beynəlxalq münasibətlər və parlamentlərarası

əlaqələr komitəsinin rəyini dinləyəcəyik. Bu gün komitənin rəyini komitənin üzvü hörmətli Zaur Şükürov verir. Buyurun.

**Zaur Şükürov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, hökumət üzvləri və media nümayəndələri, qanun layihəsi ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Azər müəllim geniş məlumat təqdim etdi. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin profilinə uyğun olan "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında" Qanunda dəyişiklik edilməsi ilə əlaqədar qısa şəkildə əlavə etmək istərdim ki, diplomatik xidmət orqanlarının əməkdaşlarının həyat və sağlamlığı bu qanuna uyğun olaraq, dövlət icbari şəxsi sığorta olunur və təklif olunan dəyişiklik icbari şəxsi sığorta vəsaitlərinin istifadə istiqamətini genişləndirməklə bu vəsaitlərin yalnız müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə deyil, əlilliyi olan bütün şəxslərə yönəldilməsini mümkün edir. Son nəticədə bu dəyişikliklə əlilliyi olan şəxslərin sosial müdafiəsi və sosial təminatı üçün əlavə imkanlar yaradılır.

Qanun layihəsi ilə bağlı Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin rəyi müsbətdir. Nəzərə alınmasını xahiş edirik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Zaur müəllim.

Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Mən indi hörmətli Hicran xanımdan xahiş edəcəyəm. Hicran xanım, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli həmkarlar, media nümayəndələri, hörmətli Azər müəllim qanun haqqında çox ətraflı danışdı. Bizim komitənin iclasında da müzakirə olunmuşdur. Əlavə rəy və təkliflərimiz yoxdur. Layihə Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Komitələrin rəylərini eşitdik. İndi isə müzakirəyə keçirik. Xatırladım ki, bizim reqlamentimiz 5 dəqiqədir. Srağagün iclasımız başlayanda sizin təklifinizlə bu reqlamentə hamı səs verdi, razılaşdı.

Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev**. Çox sağ olun. Hörmətli sədr, hörmətli qonaqlar, hörmətli həmkarlar, media nümayəndələri. Mən çıxışıma Vergi Məcəlləsinin 2.8-ci maddəsini diqqətinizə çatdırmaqla başlamaq istəyirəm. Həmin normada qeyd olunur ki, növbəti ilin dövlət büdcəsi layihəsi çərçivəsində vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi zərurəti yarandıqda həmin qanun layihələri və layihələrdə nəzərdə tutulan vergi azadolmalarının və güzəştlərinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyən edilmiş qaydada aparılan qiymətləndirilməsinin nəticələrinə dair arayış müvafiq icra hakimiyyəti orqanına cari ilin may ayının 1-dək, müvafiq icra hakimiyyəti orqanı tərəfindən isə Azərbaycan Respublikasının Milli Məclisinə cari il mayın 15-dən gec olmayaraq təqdim edilir. Hörmətli sədr, mən əvvəllər də bu məsələni qaldırmışdım. Əgər doğrudan da, Vergi Məcəlləsinin bu tələbinə əməl etmək mümkün deyilsə,

bunu "ölü" norma kimi Vergi Məcəlləsində saxlamağa ehtiyac yoxdur. Təklif edirəm ki, ikinci oxunuşda müvafiq icra hakimiyyəti orqanı ilə də əlaqə saxlayaq və bu normanı, ümumiyyətlə, Vergi Məcəlləsinin tərkibindən çıxaraq.

Müzakirə olunan məsələ ilə bağlı qeyd etmək istəyirəm ki, biz hamımız bilirik, Azərbaycanda hazırda ərzaq məhsullarının qiyməti xeyli dərəcədə artıb. Keyfiyyətli yağ, ət yoxsul insanlar üçün, ümumiyyətlə, əlçatmaz olub. Əhalinin yoxsulluğunun artması həm də siyasi və təhlükəsizlik məsələsidir. Sosial vəziyyət ağırlaşanda ölkədə dini və siyasi ekstremizm üçün əlverişli mühit yaranır və cinayətkarlığın səviyyəsi artır. Bir çox insanlar dolanışığını təmin etmək üçün hətta öz azadlıqlarını belə təhlükəyə atırlar və cinayətlərə təşəbbüs edirlər. Biz bu ildən ləğv olunmuş vergi güzəştlərini bərpa edirik. 2500 manat maaş alan şəxslər üçün artıq 3 faiz vergi dərəcəsi müəyyənləşir. Mən hesab edirəm ki, 1000 manata qədər maaş alanlar, ümumiyyətlə, bütün növ vergilərdən azad olunsunlar. Yəni burada qeyd olunsun ki, 1000 manatdan 2500 manata qədər maaş alanlar üçün 3 faiz vergi dərəcəsi müəyyən olunsun və 2500 manatdan yuxarı maaş alanlar üçün isə indiki qayda davam etsin. Mən bunu normal sayıram. Amma yoxsul təbəqəni, doğrudan da, müdafiə etmək lazımdır. Mən keçən iclasda da dedim ki, əmək miqrantlarının göndərdiyi vəsait kəskin azalıb. Əhalinin sosial vəziyyətində ciddi problemlər var. Yəni bunu görməməzlikdən gəlmək, sadəcə, mümkün deyil.

İkincisi. Mən həm də düşünürəm ki, bunu etmək mümkündür. Bizim maliyyə vəsaitimiz buna imkan verir. Mərkəzi Bankla Dövlət Neft Fondunun maliyyə ehtiyatlarının həcmi 81,5 milyarda çatıb. Bir var, Dövlət Neft

Fondunda vəsait azalardı, ona görə Dövlət Neft Fondundan büdcəyə transfertin həcmini azaltsaydıq, bu, başadüşülən olardı. Bu gün Tramp tariflərdən çox vəsait gəldiyi üçün Amerikada hər insana 2000 dollar vəsait verəcəyini bəyan edir. Amma bizdə valyuta ehtiyatlarımız artır, əvəzində, vergilər tətbiq edirik. Mən bunu diqqətinizə çatdırmaq istəyirəm ki, hazırda Dövlət Neft Fondundan transfert 1 milyard 646 milyon manat, yəni 11,4 faiz az proqnozlaşdırılır. Bu, kifayət qədər böyük məbləğdir. Hesab edirəm ki, hətta bunu olduğu səviyyədə belə saxlamaq olar.

Əlavə vəsaitlər cəlb etmək üçün, ümumiyyətlə, 3 ildən artıq istifadə olunmuş avtomobillərin ölkəyə girişinə ya qadağa qoyulmalıdır, ya da elə vergi dərəcələri müəyyən olunmalıdır ki, onları ölkəyə gətirmək mümkün olmasın. Bu, həm də daxili bazarı qorumaq üçün lazımdır. Ona görə ki, bizim özümüz də artıq avtomobil istehsal etməyə, daha doğrusu, quraşdırmağa başlayacağıq.

Gəlirlərlə bağlı da qeyd etmək istəyirəm. O vaxt bu məsələ qəbul olunanda mən kəskin etiraz etmişdim ki, biz sahibkarlara imkan vermirik, onlar 30 mindən artıq vəsaitlərini nağdlaşdırsınlar. Onlar, onsuz da, müxtəlif yollar tapırlar və müxtəlif şirkətlər öz aralarında saxta müqavilələr imzalamaqla gəlirlərinin 7 faizindən 14 faizinə qədərini itirməklə o vəsaiti nağdlaşdırırlar. Hətta mən onların bəziləri ilə söhbət etmişəm. Onlar böyük məmnuniyyətlə razıdırlar ki, əgər sahibkar 30 mindən artıq vəsaitini nağdlaşdırmaq istəyirsə, 4 faiz vergi ödəsin və büdcəyə əlavə pullar gəlsin. Həm də bunu leqallaşdıraq və qanuniləşdirək, o vəsaitlər də kimlərin isə ciblərinə deyil, dövlət büdcəsinə getsin.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Siz onlarla danışanda etiraf edirlər ki, qanunu pozurlar, yoxsa yox? Deyirsiniz, onlarla danışmışam.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Özləri etiraf edirlər, qanun pozuntusuna gedirlər.

Göydəniz Qəhrəmanov. Buyurun.

**Göydəniz Qəhrəmanov**. Hörmətli xanım sədr, çıxış üçün mənə söz verdiyinizə görə təşəkkür edirəm. Öncədən bildirim ki, qanun layihəsinə səs verəcəyəm. Məlum olduğu kimi, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sahibkarlığın inkişafına xüsusi diqqət ayrılır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi islahatlar, biznes mühitinin əlverişliliyinin artırılması, yerli və xarici investisiyaların təşviqi sahəsində atılan addımlar öz real nəticələrini göstərməkdədir. Bu siyasət Azərbaycan iqtisadiyyatının dayanıqlı, modern və rəqabətədavamlı inkişafını təmin edən əsas sütunlardan biridir. Həmçinin vergi sahəsində aparılan islahatlar ölkənin iqtisadi gücünü artırır və ölkəmizdə biznes imkanlarını genişləndirir.

Bu gün müzakirə etdiyimiz Vergi Məcəlləsinə dəyişiklik təklifi məhz sahibkarlığın inkişafını daha da gücləndirməyə yönəlmiş mühüm addımlardan biridir. Hazırkı qanunvericiliyə əsasən ardıcıl 12 ay ərzində dövriyyəsi 200 min manatdan artıq olan vergi ödəyicisi ƏDV qeydiyyatına düşmək öhdəliyi daşıyır. Təklif olunan layihə bu həddin 400 min manatadək artırılması, xüsusi ilə nağdsız ödənişlərin həcminin artması və dövriyyənin şəffaf şəkildə formalaşdırılması baxımından ciddi stimuldur. Əminəm ki, bu addım sahibkarların fəaliyyətinə geniş imkanlar açacaq, onların maliyyə yükünü azaldacaq və biznesin

genişlənməsini təmin edəcək. Bu, eyni zamanda, ölkəmizə yönələn investisiya marağını artıran mühüm mexanizmlərdən biridir.

Hörmətli həmkarlar və hökumət üzvləri, mən bir məqama da diqqət çəkərək təkliflə çıxış etmək istəyirəm. Ölkəmizə gələn turistlərin sayında ildən-ilə artım müşahidə olunur. Bu istiqamətdə dövlət tərəfindən bir çox işlər görülür, xaricdə turizm imkanlarımız təbliğ olunur, ölkəmizdə münbit infrastruktur qurulur. Paytaxtda və regionlarda keçirilən beynəlxalq tədbirlər, "Formula 1", MDB Oyunları, bu və ya digər genişmiqyaslı tədbirlər turizmin inkişafına mühüm töhfə verir. Yaxın illərdə ölkəmizə gələn turistlərin sayında artım dinamikasının davam edəcəyi gözlənilir. Bu səbəbdən regionlara investisiyaların cəlb olunması məqsədi ilə vergi güzəştlərinin və digər təşviqedici proqramların artırılması iş adamlarının bu sahəyə investisiyalarını gücləndirər, regionlarda yeni turizm mərkəzlərinin açılmasını stimullaşdırar və yeni iş yerlərinə səbəb olar. Müvafiq qurumların bu önəmli məsələyə diqqət ayırmasını xahiş edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Azər Badamov. Buyurun.

**Azər Badamov**. Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli hökumət üzvləri, həmkarlar. İlk növbədə Vergi Məcəlləsinə etdiyimiz təkliflərə müsbət yanaşdığına görə müvafiq mərkəzi icra hakimiyyəti orqanına öz təşəkkürümü bildirirəm. Xüsusi ilə qeyd etmək istəyirəm ki, keçən illərin büdcə müzakirələri zamanı sadələşdirilmiş vergi ödəyiciləri üçün müəyyən olunmuş limitin artırılması ilə bağlı təkliflə çıxış etmişdik. Təklif olunan dəyişikliklərdə isə bu limit artırılaraq 400 manat həddinə

qaldırılmışdır. Amma burada yenə də yanaşma ilə bağlı bir təklifi də səsləndirmək istəyirəm ki, edilmiş bu dəyişiklik ancaq nağdsız hesablamalara istiqamətlənmişdir. Sahibkarlardan aldığımız müraciətlərdə isə 400 manat məbləğin hibrid dövriyyəyə tətbiq olunması təklif olunur. Əgər mümkün olsa, bu məsələni də nəzərə almağınızı xahiş edirəm. Vurğulamaq istəyirəm ki, qaldırdığımız təkliflərə müsbət yanaşılmasını qanunvericilik hakimiyyəti ilə icra hakimiyyəti arasındakı səmərəli əməkdaşlığın göstəricisi hesab edirəm.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə 2026-cı il yanvarın 1-dən tətbiqi nəzərdə tutulan dəyişikliklər ölkəmizin iqtisadi strategiyasında mühüm mərhələdir. Bu dəyişikliklər təkcə vergi dərəcələrinin yenilənməsi deyil, həm də iqtisadi idarəetmənin, fiskal intizamın və sahibkarlıq mühitinin yeni tələblər əsasında formalaşdırılması məqsədi daşıyır. Dəyişikliklərin aşağıdakı əhəmiyyətli istiqamətlər olduğunu hesab edirəm. Beləliklə, avtomobil istehsalı, kənd təsərrüfatı, balıqçılıq, sənaye və ixrac-yönümlü sahələrdə tətbiq olunan vergi güzəştləri yeni investisiya axınlarına şərait yaradacaq. Bu, qeyri-neft sektorunun payının artırılması baxımından strateji əhəmiyyət kəsb edir. Kiçik və orta sahibkarlar üçün bir sıra güzəştlərin qorunması, nağdsız dövriyyənin stimullaşdırılması və vergi inzibatçılığının sadələşdirilməsi biznes mühitinin əlçatanlığını artıracaqdır. Gəlir vergisi üzrə güzəştlərin mərhələli şəkildə aradan qaldırılması həm işçilərə, həm də işəgötürənlərə adaptasiya imkanı yaradır. Sosial-iqtisadi sabitliyi qorumaq baxımından da bu yanaşmanı məqbul hesab edirəm.

Xüsusi ilə regionlarla, Naxçıvanla bağlı tətbiq olunmuş güzəşti qeyd etmək istəyirəm. Naxçıvan Muxtar Respubli-

kası üçün nəzərdə tutulan vergi güzəştləri bölgənin iqtisadi potensialının güclənməsinə, yeni müəssisələrin və iş yerlərinin yaradılmasına təkan verəcəkdir. Vergi nəzarətinin gücləndirilməsi, nağdsız əməliyyatların genişləndirilməsi və rəqəmsal həllərin tətbiqi şəffaflığın artırılması ilə yanaşı, müəyyən olunmuş güzəştlər isə kölgə iqtisadiyyatı ilə mübarizənin daha da təkmilləşdirilməsinə və iqtisadiyyatın şəffaflığının artırılmasına öz müsbət töhfəsini verəcəkdir.

Hörmətli həmkarlar, təklif olunan dəyişikliklər Azərbaycanın uzunmüddətli iqtisadi inkişaf strategiyasına uyğun olaraq, vergi sistemində yeni mərhələ açır. Bu dəyişikliklərin məqsədi təkcə vergi toplamaq deyil, həm də iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq, sahibkarlığı gücləndirmək, investisiyaları təşviq etmək və sosial rifahı təmin etmək deməkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, mən də qanun layihəsinə səs verəcəyəm. Xüsusi ilə cənab Prezidentə təşəkkürümüzü bildiririk ki, Naxçıvan Muxtar Respublikası ilə bağlı edilən güzəştlər çox təqdirəlayiqdir. Orada iş yerlərinin açılması, yeni fəaliyyət növlərinin başlanması sahibkarlığın inkişafına çox ciddi diqqətdir. Lakin mən başqa bir məsələni də qeyd etmək istərdim. Əslində, bunun bir kökü var, hörmətli Sahibə xanım. Bu gün noyabrın 21-dir. Bu gün Naxçıvan Muxtar Respublikasında Yeni Azərbaycan Partiyasının yaranmasının 33-cü ildönümüdür. Məhz həmin vaxt Yeni Azərbaycan Partiyası yarandı və bu partiyanın yaranması ilə Azərbaycanda hərc-mərcliyə, ərazi

parçalanmasına, separatizmə, qardaş qırğınına son qoyuldu, dövlətin fundamental əsasları quruldu. Məşhur "91-lər"in "Azərbaycan Sizin sözünüzü gözləyir"- deyə Ümummilli Liderə müraciəti, onun da "91-lər"ə olan cavabı məhz həmin ilə, həmin günə təsadüf edir. Noyabrın 21-də 555 nəfərlə Naxçıvan Muxtar Respublikasında Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Azərbaycanda bu gün də iqtidarda olan Yeni Azərbaycan Partiyası yarandı. Bu münasibətlə mən 800 mindən artıq üzvü olan partiya üzvlərinin, Azərbaycan xalqının, Milli Məclisin deputatlarının hər birini təbrik edirəm, dövlət və dövlətçilik yolunda, Prezidentimizin apardığı siyasət yolunda əldə etdiyi uğurlara və dayağa görə onlara minnətdarlıq bildirirəm.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Siyavuş müəllim, məlumatınıza görə çox sağ olun. Biz də Sizi və seçicilərinizi təbrik edirik.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hökumət nümayəndələri və media nümayəndələri. Təqdim olunan 2026-cı ilin büdcə paketi islahat kimi təqdim edilir. Amma tərəfimizdən edilən dərin təhlil göstərir ki, bu islahat kiçik sahibkarın çiyninə əlavə yük kimi qoyula bilər. Xüsusi ilə fərdi sahibkarlar üçün təklif edilən yeni sosial sığorta mexanizmi iqtisadiyyatın ən həssas təbəqəsini, kiçik dövriyyəli biznesi zərbə altına salır. Bir çox təqdimatları müxtəlif formatlarda dinləmişəm. Aydın görünür ki, yeni model kiçik dövriyyəli sahibkar üçün maliyyə yükünü artıracaq, qeyri-formal sektora keçid riskini yüksəldəcək, hətta fəaliyyətin dayanması ehtimalını da artırır. Bu düzəlişlər vətəndaşın gündəlik dolanışığını da təhlükəyə ata bilər.

Muzdlu işçilərə də gəlincə, burada da eyni yanlış yanaşmanın davam etdiyini görürük. Əməkhaqqı artmadan vergi yükü artırılır və bu da cəmi 3 faiz artım kimi təqdim edilir. Halbuki mövcud 30 faizlik yüklənmə 37 faizə qalxır və bu, rəsmi şəkildə insanların gəlirindən daha çox vergi tutulması deməkdir. Bu addım əmək müqavilələrinin ləğvini və kölgə iqtisadiyyatına axını daha da sürətləndirə bilər. Əslində, əməkhaqqı artmadan vergi artımı sosial siyasət deyil, sosial təzyiqdir.

Aksizlər üzrə dəyişikliklər iqtisadi məntiqə söykənmir. İçməli spirtdə və alkoqollu içkilərdə 0,2, energetik içkilərdə 0,2, siqaretdə 9,5, mobil cihazlara görə 20 manatlıq aksiz, 7 ildən köhnə avtomobillərin idxalında əmsalın benzin üçün 1,2-dən 1,5-ə, dizel üçün 1,5-dən 2-yə qaldırılması – bütün bunlar birbaşa bazarda qiymət artımına gətirib çıxara bilər. İnflyasiyanın yüksək olduğu bir dövrdə belə addımların atılması, sadəcə, səhv kimi deyil, vətəndaşın cibinə ciddi təsir edəcək addım kimi qiymətləndirilməlidir.

İctimai iaşə sektoruna gəlincə, POS-terminal dövriyyəsinin 50 faizinin ƏDV-dən azad edilməsi və sadələşdirilmiş verginin 8 faizdən 6 faizə endirilməsi 3 il müddətinə nəzərdə tutulub. Sual yaranır: 3 ildən sonra nə olacaq? Bu sektorun 3 il nəfəs almasına imkan yaradıb, sonra yenidən boğmaq planı hansı məntiqə əsaslanır? İctimai iaşə pandemiyadan, inflyasiyadan, xammal bahalaşmasından zərbə alıb, indi də vergi rejiminin qeyri-sabitliyi ilə üz-üzə qoyulur. Belə şəraitdə məhz uzunmüddətli sərmayə qoymaq istəyənlərin sayı ciddi şəkildə azala bilər.

Naxçıvan üzrə 2026–2036-cı illər üçün tətbiq edilən geniş vergi və sosial güzəştlər paketi isə, ümumiyyətlə,

iqtisadi ədalət baxımından suallar yaradır. Mənfəət, əmlak, torpaq, dividend, idxal vergilərindən azadolma, sosial sığorta yükünün dövlət tərəfindən kompensasiyası və digər üstünlüklər yalnız Naxçıvana şamil edilir. Mən buna etiraz etmirəm, təbii ki. Bəs digər regionlar? Elə rayonlarımız var ki, Naxçıvan qədər çətin vəziyyətdədir. Bu yanaşma regional balansı pozur və vergi siyasətini selektiv alətə çevirə bilər. Güzəşt iqtisadi inkişaf üçündürsə, o zaman təkcə bir regiona deyil, bütün geri qalmış regionlara tətbiq olunsun.

Layihədə bəzi müsbət toxunuşlar var. Kirayə gəlirləri üzrə verginin 14 faizdən 10 faizə endirilməsi gözəldir. Amma icarə bazarının 70 faizi kölgədə olduğu halda, təkcə dərəcənin endirilməsi heç nəyi həll etmir. Nağdsız dövriyyə limitinin 200 mindən 400 min manata qaldırılması da fayda verəcək. Amma ümumi iqtisadi sistem dəyişmirsə, bu, sadəcə, kosmetik düzəliş kimi nəzərdən keçirilə bilər.

Hörmətli həmkarlar, düzdür, bu paket vergi islahatı adı altında təqdim edilir. Amma mən bunu mahiyyətcə aşağı gəlirli sahibkarı, kiçik biznesi və muzdlu işçini daha ağır vergi yükünə salan bir sənəd kimi görürəm. Vergi siyasətinin məqsədi dövlət büdcəsinin boşluqlarını vətəndaşın qazancından doldurmaq deyil, məhz iqtisadi fəallığı gücləndirmək olmalıdır. Təqdim olunan sənəd isə iqtisadi fəallığı gücləndirmir, əksinə, mənim zənnimcə, fəallığa təzyiq göstərir. Biz bu formada qəbul olunan layihənin ölkə üzrə minlərcə kiçik biznesi bağlayacağını, regionlarda tənəzzülü dərinləşdirəcəyini və vergi daxilolmalarını azaldacağını güman edirik. Buna görə də sənəd yenidən işlənməlidir, kiçik sahibkarın, muzdlu işçilərin və regionların maraqları da gərək nəzərə alınsın. Əks halda bu paket

vergi islahatı deyil, vergi yükünün artırılması kimi ola bilər. Bu baxımdan təmsil etdiyim Milli Cəbhə Partiyası bu dəyişikliklərə müsbət yanaşmır.

Əlavə olaraq, xanım sədr, qeyd etmək istəyirəm ki, mən büdcə layihəsinə səs verdim, bütün layihələrə səs vermişəm. Sonradan sual yarana bilər ki, mən niyə bunu tənqid edirəm və buna fərqli yanaşıram. Təbii ki, mən büdcə sənədinə müsbət yanaşmalıydım. Çünki bu, dövlətin bir sənədidir. Mənim onun əleyhinə səs verməyimlə heç nə də dəyişmir. Mən büdcənin lehinəyəm, amma bu layihənin lehinə ola bilmirəm, çünki istəyirəm, burada dediyim bəzi məqamlar nəzərə alınsın. Təbii ki, bu da, ümumilikdə, bütöv bir prosesə təsir göstərmir. Amma istərdim ki, dediyim məsələlər dərindən analiz olunsun. Çünki mən bunu özüm tək deyil, partiyamızın ekspertləri ilə bərabər analiz etmişəm.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Çox təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, icazənizlə, öncə mən də əlamətdar hadisə – Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümü münasibəti ilə partiyanın sədri cənab İlham Əliyev başda olmaqla bütün üzvləri, habelə Milli Məclisdə, xanım sədr, Siz başda olmaqla, partiya sədrinin müavini çox hörmətli Əli Əhmədov başda olmaqla YAP-ı təmsil edən və ən çətin dövrlərdə sədaqətini sübut etmiş bütün həmkarlarımızı, bütün partiya üzvlərini və Ulu Öndər irsinə sadiq olan hər kəsi təbrik edim. İndiki sosial media dövründə ən asan məsələ tənqid etməkdir, ən çətini, ən cəsarətli olanı isə haqq bildiyin işi müdafiə etməkdir. 33 ildir ki, bu cəsarətli mövqeyini qoruyan YAP müstəqil

Azərbaycanın tarixində hansı isə kənar gücün, başqa dövlətin maraqlarının təmini üçün deyil, milli mənafelər rəhbər tutulmaqla zamanın tələbi ilə yaranmış ilk partiyadır. Sovetlərin son dönəmində, Qorbaçovun yenidənqurma siyasəti çərçivəsində formalaşan təsisatlardan, hərəkatlardan fərqli olaraq YAP heç vaxt imitasiya təşkilatı olmayıb, xalqın nicatının Heydər Əliyev yolunda olduğuna inanan, ölkənin siyasi, mədəni, elm və təhsil dairələrinin qaymaqları hesab olunan ziyalıların Ulu Öndər kursu ətrafında birləşməsi ilə formalaşıb.

Eyni zamanda, qürurla deməliyəm ki, YAP-ın təsis olunduğu Naxçıvandan sonra ilk rayon təşkilatı təmsil etdiyim Biləsuvarda yaradılıb. Eyni qürurla da söyləməliyəm ki, qəhrəmanlar diyarı Biləsuvarın sakinləri ilk gündən olduğu kimi, bu gün də Ulu Öndər ideyalarının, cənab İlham Əliyev siyasi kursunun ən sadiq tərəfdarlarıdır.

Məsələmizə gəlincə, büdcə paketinə daxil olan qanun layihəsi son günlər ayrı-ayrı dairələrin cəmiyyətdə məqsədli formada yanlış təfsirinə məruz qalmaqdadır. Baxın, biz konstitusion niyyət olaraq bəyan etmişik ki, ədalətli, iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin edək. Bu məqsədlə də Azərbaycan Respublikasında müxtəlif mülkiyyət növlərinə əsaslanan, bazar münasibətləri əsasında sosial yönümlü inkişafına şərait yaradılan iqtisadiyyat xalqın rifahının yüksəldilməsinə xidmət edir.

Məlumdur ki, hər bir şəxs dövlət və cəmiyyət qarşısında özünün hüquq və azadlıqlarından bilavasitə irəli gələn və yalnız Konstitusiya ilə və ya qanunlarla üzərinə qoyulan vəzifələr daşıyır. Konstitusiya ilə vətəndaşın üzərinə qoyulan ilk vəzifə vergilərdir. Daha doğrusu, ana qanunumuzun 73-cü maddəsinə əsasən qanunla müəyyən

edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur.

Vergitutmanın ümumi, bərabər və ədalətli olmasına əsaslanan cari dəyişikliklər məruzədə də qeyd edildiyi kimi, ilk növbədə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, bu qəbildən bir çox istiqamətlərin vergilərdən azad olunması, fiziki şəxsin xaricdən əldə etdiyi dividend gəlirlər üzrə vergi dərəcəsinin 3 dəfə azaldılması, mediaya vergi güzəştlərinin daha 3 il uzadılması və sair kimi çox önəmli istiqamətləri əhatələyir. Yəni iqtisadi cəhətdən əsaslandırılmış bu dəyişikliklə heç kəsin Konstitusiya hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən addımların müəyyən edilməsinə yol verilmir. Yaxşı, belə olan halda cəmiyyəti çaşdırmağın nə mahiyyəti var?

Bu prosesdə iki kəsim maraqlıdır. Birincisi, kölgə iqtisadiyyatında maraqlı olanlar. Bu kəsim mediada, sosial mediada, eyni zamanda da, sifarişli yazılar, paylaşımlar edərək bu dəyişikliklərin əleyhinə cəmiyyətin, daha doğrusu, sosial media qaragüruhu hesabına baryer qurmaq istəyir. Çünki cari layihənin əsas amalı vergi nəzarəti mexanizminin daha da təkmilləşdirilməsi və kölgə iqtisadiyyatına qarşı mübarizədir.

İkincisi isə, bu ajiotajdan xal tutmaq istəyən siyasi ünsürlər. Bir vaxtlar hakimiyyəti zorla zəbt edərək xalqı quru çörəyə möhtac qoyan, hakimiyyəti dövründə vergi sistemi əvəzinə qoluzorluların töycü yığdığı, yollarda quldurluq edənlərin xərac kəsdiyi bir anarxiyaya səbəb olanlar bu gün iqtisadiyyatdan, vergidən proqnozlar verməyə başlayıblar. Yaxud özünü siyasi hesab etməyən, guya "müstəqil" davranan "mütəxəssis"lərdən ibarət marginal bir qrup var, zaman-zaman onların səbatsız davranışlarına şa-

hidlik edirik. Məsələn, Vətən müharibəsi dövründə bizi militarizmdə günahlandırırdılar. Amma baxın, 5 il əvvəl müharibə əleyhinə petisiya imzalayanlar bu gün Azərbaycan dövlətinin de-fakto nail olduğu dayanıqlı sülh barədə bir kəlmə də olsun, danışmırlar. Ona görə də vətəndaşlarımız bu kimi təbliğatın təsirinə düşməməlidirlər, bu dövlət vətəndaşının düşməni deyil, elə vətəndaşının dövlətidir. Bu yersiz populizmi buraxmaq lazımdır.

Heç bir radikal ünsür, yaxud heç bir qrup nə vətəndaşı, nə də dövləti cənab İlham Əliyev iqtidarından daha artıq düşünmür. Məğlub xalqı qalibə çevirən, məğlub dövlətə mütləq qələbə qazandıran siyasi iradə əgər bu gün cari layihə ilə təşəbbüskar kimi çıxış edirsə, hər kəs əmin ola bilər ki, yenə də rəhbər tutulan amil vətəndaş və dövlətin uzlaşmış mənafeyidir.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Rəşad müəllim, suala yazılmısınız? 1 dəqiqə vaxtınız var. Buyurun.

**Rəşad Mahmudov**. Çox təşəkkür edirəm. Ölkədə eyni tibbi xidməti göstərən müxtəlif xəstəxanalar və səhiyyə strukturları fərqli vergi rejimlərinə tabe tutulur. Hamımıza məlumdur ki, bu yanaşma uzun illərdir, davam edir və nəticədə bir sahədə eyni işi görən mütəxəssislər arasında bərabər olmayan iqtisadi şərait formalaşır. Eyni tibbi xidməti göstərən qurumlara fərqli vergi münasibəti, bir tərəfdən, bazarda ədalətsiz rəqabət yaradır, digər tərəfdən də, investisiya mühitinə mənfi təsir göstərir.

Bu gün iqtisadi blokun da burada olmasını nəzərə alaraq sualım belədir: səhiyyə sahəsində fəaliyyət göstərən bütün subyektlər üçün istər dövlət, yəni Səhiyyə Nazirliyi tərkibində olan elmi-tədqiqat institutları, Tibb Universi-

teti, istər özəl, istərsə də müxtəlif hüquqi formalı tibb müəssisələri üçün vahid və ədalətli vergi çərçivəsinin yaradılması nəzərdən keçirilirmi? Bu uyğunsuzluğun aradan qaldırılması üçün...

**Sədrlik edən.** Sualınız bitdi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov**. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hökumət üzvləri, millət vəkilləri, media nümayəndələri. Mən də ilk növbədə xalqımızı Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümü münasibəti ilə təbrik edirəm. Geniş mənada xalqımız dedim, çünki məhz xalqımızın tələbi, istəyi və arzusu ilə Yeni Azərbaycan Partiyası yarandı. Çünki xəyanətkar Xalq Cəbhəsi və Müsavat cütlüyü Azərbaycan dövlətini, xalqımızı məhvə sürükləyirdilər. Həmin dövrdə Ulu Öndərimizin zəkasına, uzaqgörən siyasətinə söykənən Yeni Azərbaycan Partiyası yarandı və bu gün də Azərbaycan xalqının istəklərini ifadə edir, dövlətçilik məfkurəsini hər şeydən üstün tutaraq böyük nailiyyətlər qazanır. Bu nailiyyətlərin əldə olunmasında bütün ölkəmizin və xalqımızın nailiyyətləri ilə paralel Yeni Azərbaycan Partiyasının da adı səslənir. Çünki bu nailiyyətlərimizə imza atan cənab Prezidentimiz, eyni zamanda, bu partiyanın sədridir. Cənab Prezidentimizi təbrik edirəm. Yeni Azərbaycan Partiyasının humanist prinsiplərini həyata keçirən Birinci vitse-prezident Mehriban xanım Əliyevanı təbrik edirəm. Bütövlükdə, Yeni Azərbaycan Partiyası bugünkü dövlətçiliyimizdə əhəmiyyətli rol oynayır. Eyni zamanda, parlamentimiz də bu işləri yüksək səviyyədə həyata keçirir. Xanım sədr, Sizin, eləcə də hörmətli Əli müəllimin simasında bütün parlamentimizi, Yeni Azərbaycan Partiyasının üzvlərini təbrik edirəm.

Mən bugünkü müzakirələrimizlə bağlı öz fikirlərimi bildirəcəyəm. Sadəcə olaraq, Razi Nurullayevin bir fikrinə münasibət bildirmək istəyirəm. Razi müəllim deyir ki, büdcəyə səs verdi, ancaq Vergi Məcəlləsinə olan dəyişikliklərə səs verməyəcək. Paradoks yaranır, ümumiyyətlə, Razi müəllimin fikirlərində bəzən belə paradokslar olur. Elə bu gün müzakirə etdiyimiz qanun layihəsi səs verdiyimiz büdcənin tərkib hissəsidir. Səs verdiyimiz büdcənin, 41 milyard vəsaitin istiqamətlərini müəyyənləşdirən, bugünkü prioritetlərimizi müəyyənləşdirən istiqamətlər üçün nəzərdə tutulan mükəmməl bir sənəddir. Qarabağda, Şərqi Zəngəzurda quruculuq işlərini, müdafiə qüdrətimizi, sosial tədbirlərimizi, elm, səhiyyə tədbirlərimizi, investisiya xərclərimizi həyata keçirmək üçün müəyyənləşdirilən mükəmməl bir istiqamətdir.

Qanun layihəsinin əsas 3 istiqaməti var. İnvestisiya və sahibkarlığın təşviqi, büdcə gəlirlərinin və vergi nəzarətinin təkmilləşdirilməsi. İnvestisiya mühitinin yaradılması, bu istiqamətdə vergi güzəştlərinin həyata keçirilməsi. Bu layihədə öz əksini tapan çox ciddi, əhəmiyyətli maddələr var. Məlumdur ki, Naxçıvan Muxtar Respublikasında, eləcə də Şərqi Zəngəzurda və Qarabağda nəzərdə tutulan işlərin həyata keçirilməsi üçün vergi güzəştləri tətbiq olunur. Bu isə, bir daha deyək, bizim milli istəyimizin, dövlətin həyata keçirdiyi siyasətin tərkib hissəsidir.

Digər tərəfdən, ölkədə sənaye sahələrinin genişləndirilməsi, avtomobil sənayesinin təşviq olunması sahəsində Vergi Məcəlləsində güzəştlər nəzərdə tutulur. Bu isə avtomobil, hibrid avtomobillər və digər sahələrlə yanaşı, ölkəmizdə avtomobil istehsalını da təkmilləşdirən addımlardır. Konkret sahəni əhatə edən istiqamətlərdən biri də

gəmiqayırma və gəmi təmiri müəssisələri tərəfindən bütün növ malların idxalına 3 illik ƏDV-nin azaldılmasıdır. Məlumdur ki, Azərbaycanın növbəti ən böyük uğurlarından biri Orta Dəhliz və bu dəhliz üzərində böyük nailiyyətlər əldə olunmasını səciyyələndirən layihələrdir. Bunlardan biri – Bakı Beynəlxalq Dəniz Ticarət Limanı 25 milyon ton yük daşıma imkanına malikdir. Hesab edirəm ki, gəmiqayırma zavodunda bu güzəştlər əhəmiyyətli nəticələr verəcək. Ora 1000 nəfərdən çox işçinin cəlb olunması prosesi gedir.

Bütövlükdə, qanun layihəsinə səs verirəm və dəstəkləyirəm. Mükəmməl bir qanun layihəsidir.

**Sədrlik edən.** Sağ olun, Aydın müəllim. Ancaq xatırladım, hər bir deputatın ixtiyarı var ki, öz fikirlərini ifadə etsin.

Tahir Mirkişili. Buyurun.

**Tahir Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli xanım sədr, mən də Yeni Azərbaycan Partiyasının üzvü olaraq həmkarlarımı partiyamızın yaranması günü münasibəti ilə təbrik edirəm. Hesab edirəm ki, son 33 il ərzində partiyamız əvvəlcə Ulu Öndər Heydər Əliyevin, indi isə möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm bir yol keçmişdir. Azərbaycanın inkişafında, güclənməsində və bugünkü Azərbaycanın var olmasında Yeni Azərbaycan Partiyasının müstəsna bir rolu vardır. Düşünürəm ki, bu rol bundan sonra da uğurla davam edəcəkdir.

Hörmətli həmkarlar, mən Vergi Məcəlləsi ilə bağlı xeyli müsbət məqamları dəstəkləyirəm. Xüsusən qeyd edim ki, indiki Orta Dəhlizin inkişafı və Zəngəzur dəhlizinin açılması fonunda Naxçıvana vergi güzəştlərinin tətbiq olunması tək iqtisadi məsələ deyil, eyni zamanda,

ciddi strateji və geoiqtisadi məsələdir. Hətta təklif edərdim ki, bu güzəştlər müddətli deyil, müddətsiz olsun. Çünki Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazi, Orta Dəhlizin dünyanın diqqətində olduğu bir dövrdə Naxçıvanda emal sənayesinin, istehsalın, xidmət sahələrinin inkişafı Azərbaycan üçün çox önəmlidir və bunu tamamilə doğru bir addım hesab edirəm.

Eyni zamanda, sadələşdirilmiş verginin hibrid sisteminin tətbiq olunmasını mühüm bir innovasiya kimi qəbul edirəm. Hesab edirəm ki, sadələşmiş verginin həcminin hazırda 200 mindən 400 minə qədər artırılması və bunun nağdsız ödənişlərə bağlanması mühüm bir yenilikdir. Ola bilər, gələcəkdə bu 400 min daha da artırılsın. Amma Azərbaycanda vergi bazasının artması yönündə nağdsız ödənişlərin həvəsləndirilməsi kifayət qədər mühüm bir addımdır.

Hörmətli həmkarlar, ümumiyyətlə, vergi dövlət büdcəsinin ən təbii və ən doğru gəlir mənbəyidir. Əgər biz dövlət büdcəmizin gəlirlərinin böyük hissəsinin vergi hesabına gəlməsinə nail olsaq, bu, Azərbaycan dövlətinin iqtisadi siyasətdə əldə etdiyi ən böyük nəticələrdən biri olar. Mən müqayisə üçün deyim ki, hazırda Azərbaycanın dövlət büdcəsi gəlirlərinin hər 100 manatından 44 manatı verginin hesabına, 18 manatı isə gömrük ödənişləri hesabına formalaşır. Müqayisə üçün deyim ki, Gürcüstanın dövlət büdcəsi gəlirlərinin hər 100 manatının 78 manatı vergi hesabına formalaşır. Türkiyənin dövlət büdcəsinə daxil olan hər 100 manatın 86 faizi vergilərin hesabına formalaşır. Bu rəqəmlər onu göstərir ki, Azərbaycanda vergi siyasəti kifayət qədər yumşaq, vergi yükü digər ölkələrlə müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır. Bu, bir daha dövlətin iqtisadi siyasətinin, həqiqətən də,

sosial olduğunu deməyə əsas verir. Amma bu o deməkdir ki, bu istiqamətdə vergi dərəcələrinin deyil, vergi bazasının artması yönündə də müəyyən işlər görmək lazımdır. Ümumiyyətlə, Azərbaycanda vergi dərəcələri qanunla müəyyən olunur. Mən xatırlamıram ki, son illərdə hər hansı bir qanunda vergi dərəcələrinin artırılması ilə bağlı Milli Məclisə qanun daxil olsun. Biz hər zaman vergi güzəştləri ilə, vergilərdən azadolma ilə bağlı danışmışıq. Mən xatırladım ki, hazırda Azərbaycanda dövlət büdcəsinin gəlirlərindən 7,3 milyard manat həcmində azadolmalar mövcuddur. Bunun təxminən 3,5 milyardı gömrükdən, 3,8 milyardı isə sahibkarlıqdan azadolmalardır. Bu, dövlət büdcəsi gəlirlərinin 20 faizinə yaxındır. Belə bir halda istənilən vergidən güzəştlər məqsədli və müddətli olur. Müddətlər, məsələn, sənaye parkları hazırda 10 il müddətinə vergidən azaddır. Məqsədimiz isə aydındır. Vergi bazasının artması daha çox insana xidmət edir və sahibkarlığın şəffaflaşması ilə bağlıdır.

Burada qeyd olundu, fiziki şəxslər 2018-ci ildə gəlir vergisindən azad olunmuşdur. Mən rəqəmlərə baxdım. Təkcə son 7 il ərzində Azərbaycanda əməkhaqqı fondu bu istiqamətdə 2,7 dəfə artmışdır. Xatırlayırsınızsa, biz 2018-ci ildə gəlir vergisinin çəkisini nə qədər sıfır etsək də, Dövlət Sosial Müdafiə Fondunun ödənişlərini olduğu kimi saxlamışdıq. Keçən dövr ərzində Dövlət Sosial Müdafiə Fondu üzrə gəlirlər 3,4 dəfə artmışdır. Bu o deməkdir ki, bəzən vergini hətta aşağı endirdiyimiz zaman dövlətin makroiqtisadi siyasətinə nail olmaq və hədəflərə də çatmaq mümkündür. Mən düşünürəm ki, bu istiqamətdə Azərbaycan dövlətinin, xüsusən hökumətin apardığı vergi siyasəti kifayət qədər effektivdir, yumşaqdır, eyni zamanda, gəlirlərə və ölkənin sosial vəziyyətinə uyğunlaşan bir siyasətdir.

Bu baxımdan mən vergi istiqamətində təklif olunmuş dəyişiklikləri dəstəkləyirəm. Hesab edirəm ki, indi təqdim olunmuş rəqəmlər də gələcəkdə bu istiqamətdə daha çox nəticə əldə etməyə imkan verəcək.

Bu kontekstdə bir də təklifimi səsləndirmək istəyərdim. Hesab edirəm ki, Azərbaycanda həm də nail olacağımız ən mühüm göstəricilərdən biri məşğulluğun artması və daha çox iş yerlərinin açılması ilə bağlıdır. Mən təklif etmək istəyərdim ki, Azərbaycanda bundan sonra yeni iş yeri açan, yaxud da əməkhaqqını artıran sahibkarlara ən azı bir il müddətinə bütün vergilərdən 50 faiz güzəşt tətbiq olunsun. Bu, birinci məsələ.

İkinci məsələ. Azərbaycanda universiteti bitirib, ilk dəfə əmək bazarına daxil olan insanlara da vergi güzəştləri tətbiq etmək lazımdır ki, bu, məşğulluqda daha çox effekt versin.

Qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar və media nümayəndələri. Mən də qanun layihəsini dəstəkləyirəm və onun lehinə səs verəcəyəm. Qanun layihəsində olan bir sıra konseptual məsələlərə münasibətimi bildirmək istərdim. Təbii ki, ən çox müzakirə olunan məsələlərdən biri fiziki şəxslərin gəlir vergisi ilə bağlı güzəşt müddətinin başa çatması ilə əlaqədardır. Növbəti ildən etibarən fiziki şəxslərin gəlir vergisinə keçid mərhələli və yumşaq keçid olacaq. Bu, nəticə etibarı ilə, bir tərəfdən, biznesin yeni mexanizmə hazırlaşmasına imkan verəcək, digər tərəfdən, mərhələli keçid və proporsional olaraq

dərəcələrin dəyişməsi biznes və sahibkarlar üçün izafi xərcin yaranmasının qarşısını alacaq.

Qeyd etmək istərdim ki, 2026-cı ildə Azərbaycanda özəl sektorda gəlir vergisi dərəcəsi 3 faiz olacaq. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan ölkələrdə bu, 25 faizdir, eyni zamanda, Avropa İttifaqının İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, yəni OECD-ə üzv olan ölkələrində 42,8 faiz gəlir vergisi tətbiq olunur və burada qeyd olundu. Amerika Birləşmiş Ştatlarında, əslində, gəlir vergisi proporsional olaraq 10 faizdən 37 faizə qədər dəyişib. Biz region ölkələrlə inkişaf etmiş dövlətləri müqayisə etsək, praktik olaraq 7 illik güzəştdən sonra Azərbaycan özəl sektorda ən aşağı gəlir vergisi tətbiq edən ölkələrdəndir. Mən müqayisə üçün deyim ki, xüsusən 2500 manatadək gəlir vergisi dərəcəsi 3 faiz olacaq. Muzdlu işçilərin təxminən 95 faizinin maaşı 2500 manatadəkdir. Bu o deməkdir ki, 1000 manat əməkhaqqı alan vətəndaşımızın əməkhaqqından 200 manat azaldılacaq, çünki 200 manat azaldılan hissədir və 800 manat 3 faizlə vergiyə cəlb olunacaq. Yəni bu halda 1000 manat əməkhaqqı alan vətəndaşımızın ödədiyi gəlir vergisi cəmi 24 manat olacaq. Bu, əslində, ondan xəbər verir ki, yeni keçiddə məqsəd sahibkarlar üçün ciddi izafi xərcin və ya vergi yükünün yaranmamasıdır. Eyni zamanda, fiziki şəxslər üçün optimal dərəcələrin tətbiqində də məqsəd bundan ibarətdir.

Hörmətli Bəhruz müəllimin toxunduğu bir məsələyə də münasibət bildirmək istərdim. Çox təəssüf ki, bəzi hallarda sosial şəbəkələrdə bir sıra qruplar tərəfindən dəyişikliklərə istinad etmədən fərqli fikirlər söylənilir. Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərin kiçik sahibkarlar üçün əlavə yük yaradacağı ilə də bağlı real olmayan

fikirlər var. Amma bu gün müzakirə etdiyimiz Vergi Məcəlləsinə edilən dəyişikliklər mikro və kiçik sahibkarlar üçün hər hansı əlavə vergi yükü yaratmır və heç bir maddədə kiçik sahibkarlarla bağlı, eləcə də mikro sahibkarlarla bağlı əlavə vergi yükünün yaradılması nəzərdə tutulmayıb. Əksinə, 2026-cı ildən etibarən xüsusən mikro sahibkarların istifadə etdiyi sadələşdirilmiş vergi dövriyyəsi 200 min manatdan 400 min manatadək artırılır. Yəni bu nə deməkdir? Bu o deməkdir ki, əgər 2026-cı ilədək mikro sahibkarların 300 min manatlıq dövriyyəsi varsa, əlavə dəyər vergisi ödəyicisi olaraq 18 faiz vergi ödəyirdilərsə və ya 200 min manatdan 400 min manatadək 18 faiz vergi ödəyirdilərsə, növbəti ildən etibarən onlar artıq 18 faiz vergi deyil, 2 faiz vergi ödəyəcəklər. Biz nəyi müşahidə edirik? Növbəti ildən etibarən mikro sahibkarlar üçün sadələşmiş vergi dövriyyəsi artırıldığı üçün vergi yükü azalacaq. Təbii, bu da imkan verəcək ki, mikro sahibkarlar daha aşağı vergi ödəməklə fəaliyyətlərini genişləndirə bilsinlər. Qeyd olunduğu kimi, hibrid yanaşmanın da tətbiq olunması nağdsız hesablaşmalara marağın artmasına və stimullaşdırılmasına imkan verəcək.

Bütün bunlarla yanaşı, mən də bir sıra təkliflərimi qeyd etmək istərdim. Mövcud qanunvericiliyə əsasən vergidən azad olunan məbləğ 200 manatdır və mən təklif edərdim...

**Sədrlik edən.** Vüqar müəllim, bircə dəqiqə, üzr istəyirəm. İndi vurğuladığınız o məsələ çox həssas məsələdir. Görürsünüz, çıxışlarda da səslənir ki, bu məsələ cəmiyyəti maraqlandırır.

Azər müəllim, yenə də Siz, komitəniz, Vüqar müəllimlə, nazirliyin işçiləri ilə, – jurnalistlər buradadırlar, – çıxın, bu məsələ ilə bağlı hansı isə arayışlar verin. Çünki burada elə-belə səslənmir, camaat deyir deyə... Amma sizin bu

dəqiqə dediyiniz… Azər müəllim, Sizin təqdimatınızda da səslənmişdi. Xahiş edirəm, bu şəraitdən istifadə edin.

Üzr istəyirəm, buyurun.

**Vüqar Bayramov**. Mən təklif etmək istərdim ki, vergidən azad olunan hissə məhz minimum əməkhaqqı ilə əlaqələndirilsin, 200 manatdan 400 manatadək artırılsın. Bu, minimum əməkhaqqı alan vətəndaşlarımızın daha az vergi ödəməsinə və onların sosial təminatının daha yaxından müdafiəsinə imkan yarada bilər. Qeyd olunduğu kimi, vergi güzəştlərinin də xüsusən keyfiyyət meyarlarına bağlanması, eləcə də vergi güzəştləri tətbiq edilən sektorlarda qeyri-neft ixracatı, məşğulluq, o cümlədən məhsuldarlıq kimi meyarlardan istifadə olunması məqsədəuyğun olardı. Təbii ki, bu, nəticə etibarı ilə vergi güzəştlərinin istifadə imkanlarının genişləndirilməsinə və sahibkarların daha yaxından istifadəsinə imkan yaradır. Bütövlükdə, qanun layihəsi həm mikro və kiçik sahibkarlar üçün yeni imkan yaradacaq, muzdlu işçilər üçün yumşaq və mərhələli keçid reallaşdırdığı üçün izafi xərc yaratmayacaq və nəticə...

**Sədrlik edən.** Mikrofon verin. Mən Sizin vaxtınızı almışdım.

**Vüqar Bayramov**. Çox sağ olun. Mən qanun layihəsini dəstəkləyirəm və hörmətli həmkarlarımı da qanun layihəsini dəstəkləməyə dəvət edirəm. Minnətdaram.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Hörmətli sədr, dəyərli hökumət və parlament üzvləri. Öncə layihəni həm konsepsiyasına, həm də əsas hədəflərinə görə tamamilə müdafiə etdiyimizi bəyan etmək istəyirəm. Düşünürdüm, bu layihə büdcə paketindən öncə müzakirə olunsaydı, bəlkə burada qeyd edilən

terror mediasının bəlli tezisləri də layihənin mühüm müddəaları ətrafında bu dərəcədə epidemiya kimi yayılmazdı.

İkincisi, biz, nəhayət, başa düşməliyik ki, cənab Prezidentin uzun on illər bəyan etdiyi qeyri-neft iqtisadiyyatını qurmaq, neftsiz iqtisadiyyatı bərqərar etmək strategiyası müəyyən ağrılı mərhələlərdən keçərək baş verməlidir. Bu konsepsiyanın əsas hədəfləri ona istiqamətlənibdir.

Üçüncüsü, biz görürük ki, dünyada vergi və gömrük rüsumları necə qlobal müharibənin alətlərinə, silahlarına çevrilib və ABŞ prezidenti Donald Tramp onu çox uğurla tətbiq edir. İndi Amerika ənənəvi hərbi sistemi ilə, silahları ilə, ordusu ilə hərəkət etmir. Yəni dünyada tarif savaşları daha çox özünü göstərir. Ona görə Azərbaycan dövləti də öz müstəqil məramını bu platformalara daşımağa çalışır.

Dördüncüsü, Gürcüstanda 2003-cü ildə inqilaba müxtəlif münasibət bəsləmək olardı. Amma hakimiyyət dəyişikliyinə rəğmən, iqtidara gələn qüvvələr Azərbaycana yüksək münasibətini uzun illər qoruyub saxladı. Saakaşvili bəyan edir ki, o, hakimiyyəti artıq götürəndən sonra iqtisadiyyat naziri Kaxa Bendukidzeni yanına çağırır və "indi nə edəcəyik?" - deyə soruşur. O deyir: Əgər əvvəlki hakimiyyətdən fərqli işlər görmək istəyiriksə, birinci, vergi dərəcələrini sadələşdirməliyik ki, onu pinəçilər də, dülgərlər də, rəngsazlar da başa düşsünlər. Baxmayaraq ki, onda Gürcüstanın həyatında mövcud olan qeyri-qanuni hadisələr iqtisadiyyatda daha çox tüğyan edirdi, məlum adlar, epitetlər var idi ki, işlətmək istəmirəm, amma bu baş verdi.

Nəhayət, bu gün Azərbaycan insanı da SOCAR şirkəti başda olmaqla 3,5 milyard dolları coğrafi baxımdan

bizdən bir neçə dəfə kiçik olan əraziyə qoydu. Biz bunun səbəblərini təhlil etməliydik ki, nə üçün kapital bizim ölkəmizdən kənara gedir? Ona görə də kapitalın ölkəyə qaytarılması, verginin 14 faizdən 5 faizə endirilməsi təqdir olunacaq hadisədir. Rüsumsuz ticarət mağazalarında ticarətə aparılan mallar üzərində ƏDV və aksizlərin güzəştinin verilməsi, əksinə, malların qiymətlərini ucuzlaşdıra bilər və biz bunu təbliğ etməliyik.

Hörmətli sədr neçə gündür, tamamilə haqlı olaraq bu məsələni ayrıca vurğulayır. Media subyektlərinə tətbiq olunan güzəştlərin daha 3 il davam etdirilməsi, sadələşdirilmiş verginin 200 min manatdan 400 min manatadək artırılması və sair.

Hörmətli sədr, burada Naxçıvanla bağlı məsələni ayrıca vurğuladılar. Gerçəkdən də, cənab Prezidentin Vətən müharibəsində qələbəmizdən sonra dəfələrlə bu məsələyə ayrıca yer verməsi, bir neçə gün öncə cəmi 3 il əvvəl təyin olunmuş şəxsin yenidən vəzifədən azad edilməsi və ora yeni şəxsin təyinatı da… Naxçıvan güclənməlidir. Cənab Prezidentin o fikrini olduğu kimi səsləndirmək istəyirəm: “Biz elə etməliyik ki, Şərqi Zəngəzurla Naxçıvan vahid iqtisadi inkişaf strategiyasında birləşsin”. Dünyada eksklavlar çoxdur. Alyaska Amerikadan, Kalininqrad Rusiyadan, bir neçə ölkənin, Almaniyanın, İtaliyanın həyatında bəlli tarixi səbəblərdən coğrafi baxımdan ayrı düşmüş bu cür ərazilər var. Cənab Prezidentin strategiyasının Naxçıvanı bəlkə də əvvəl, bizim ərazilərimizin işğal olunduğu dövrdən də qat-qat artıq inkişaf etdirməsi ki, burada hörmətli Tahir Mirkişili ona toxundu – qarşıdakı dövrdə Azərbaycanın hədəfi olan kommunikasiyaların açılması və coğrafi birləşmək imkanımız, – dərhal bunu işğal adlandıracaqlar, amma bu cür birləşməni özündə ehtiva

edir, – ona görə də Naxçıvanla bağlı verilən, yəni azad torpaqlara edilən güzəştlərin eyni rejimdə bura tətbiqini tamamilə alqışlayırıq.

Hörmətli sədr, mənim büdcə müzakirələrində imkanım olmamışdır. Palatanın rəyində qeyd olunur ki, İqtisadiyyat Nazirliyinin nəzdində olan 10005 qeyri-dövlət obyektindən yalnız 3 mini, yəni 30 faizə qədəri icarəyə verilib. İki il əvvəl azad olunan Xankəndidə isə 540 obyekt çox asan şərtlərlə, hələ əhalinin məskunlaşması orada getmədən insanlara verilib və çox böyük bir canlanma yaranıb. Deməli, ölkə rəhbərinin "Qarabağda mövcud olan uğurlu modelləri ölkənin digər ərazilərinə də tətbiq etməliyik" – sözlərinin mənası o idi ki, o 7000 obyekti də çox asan şərtlərlə, bəlkə bir sıra hallarda sıfır vergi ilə, yalnız iqtisadi dəyər yaratma amilinə görə vermək lazımdır.

Vaxtım başa çatır. Bu layihəni müdafiə edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Soltan Məmmədov. Buyurun.

**Soltan Məmmədov**. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar və media nümayəndələri. Azərbaycan Respublikasının Vergi Məcəlləsində və digər normativ hüquqi aktlarda dəyişiklik edilməsinə dair qanun layihəsi vergi güzəştləri ilə bağlı bir sıra vacib məsələləri əhatə edir. Ümumilikdə, təklif olunan 45 maddə üzrə 145 dəyişiklik 3 əsas istiqaməti nəzərdə tutur. Bunlar investisiya və sahibkarlığın təşviqi, büdcə gəlirlərinin tənzimlənməsi və vergi nəzarətinin təkmilləşdirilməsindən ibarətdir. Bu dəyişikliklərin məqsədi vergi inzibatçılığını sadələşdirmək, biznes mühitini yaxşılaşdırmaq və qeyri-neft sektorunun inkişafını daha güclü şəkildə stimullaşdırmaqdır. Məlum olduğu kimi, 2025-ci ilin məlumatlarına əsasən

vergi-gömrük güzəştləri və azadolmaları 7,7 milyard manat olub. Bu, proqnozlaşdırılan büdcə gəlirlərinin 20 faizini əhatə edir. Təklif olunan qanun layihəsi ölkənin iqtisadi inkişafını sürətləndirməyə, kölgə iqtisadiyyatı ilə mübarizə tədbirlərini gücləndirməyə imkan yaradacaq.

Dəyişikliklər, eyni zamanda, vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsini və şəffaflığın artırılmasını nəzərdə tutur. Nağdsız əməliyyatların genişləndirilməsi, üfüqi monitorinq sisteminin tətbiqi və kölgə iqtisadiyyatına qarşı mübarizənin gücləndirilməsi əsas prioritetlərdir.

Təklif olunan dəyişikliklər sırasında nağdsız əməliyyatların stimullaşdırılması və şəffaflığın təmin edilməsi də nəzərdə tutulur. ƏDV üzrə məcburi qeydiyyat limitinin 400 min manata qaldırılması və ictimai iaşədə nağdsız dövriyyəyə tətbiq olunan vergi güzəştləri, hesab edirəm ki, həm sahibkarlar üçün əlavə imkanlar yaradır, həm də vətəndaşların mənafelərinə xidmət edir. Məlum olduğu kimi, "ƏDV geri al" sisteminin uğurlu tətbiqi vergi daxilolmalarının həcminin artmasına təkan verən amillərdən biridir.

Digər mühüm istiqamət biznesin dəstəklənməsidir. Dövlət-özəl tərəfdaşlığı layihələri, kənd təsərrüfatı, sənaye, ictimai iaşə və "yaşıl iqtisadiyyat" sahələri üçün yeni vergi güzəştləri təqdim edilir. Bu, həm yerli investisiyanın artmasına, həm də idxaldan asılılığın azalmasına xidmət edəcək.

Ümumilikdə, hesab edirəm ki, təqdim edilmiş layihə büdcə gəlirlərinin daha dayanıqlı və proqnozlaşdırılan şəkildə formalaşması baxımından xüsusi ilə vacib əhəmiyyət kəsb edir. Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması, vergi sisteminin təkmilləşdirilməsi daxili bazarı qorumağa və idxaldan asılılığı azaltmağa

əlavə imkanlar yaradacaqdır. Çünki bu təkliflərin əsas məqsədi vergi sisteminin daha səmərəli, şəffaf və biznes üçün əlçatan olmasına nail olmaqdır.

Bir məsələni də qeyd etmək istərdim ki, icbari tibbi sığortanın uğurlu tətbiqi üçün qanunvericilikdə davamlı dəyişikliklər zəruridir. Təklif olunan dəyişiklik qanunvericiliyin təkmilləşdirilməsi, sığortalıların dairəsinin və icbari tibbi sığorta üzrə sığorta haqlarının məbləğlərinin dəqiqləşdirilməsi, eyni zamanda, ədalətli tibbi xidmətin təmin olunmasına imkan yaradır. Təklif olunan qanun layihəsindəki dəyişiklik, eyni zamanda, qeyri-formal məşğulluğun təsir dairəsinə düşən sığorta olunanların müəyyən olunması, həmin kateqoriyaya daxil olan insanların icbari sığortadan faydalanması üçün tələb olunan sığorta haqlarının ödənilməsi mexanizmini müəyyən edir. Qanunun dəyişikliyi sığortanın ana xətti olan həmrəylik prinsipini əsas tutaraq İcbari tibbi sığorta fondunun daha da genişləndirilməsinə və müvafiq olaraq xidmətlər zərfinə daxil olan tibbi müdaxilələrin sayının artırılmasına xidmət edəcəkdir.

Qanun layihələrini dəstəkləyirəm və həmkarlarımı da səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Səyyad Aran. Buyurun.

**Səyyad Aran**. Çox təşəkkür edirəm, xanım sədr. Xüsusən Sizə təşəkkür edirəm ki, bu gün Milli Məclisin ümumi ruhunun, yəni parlamentdəki demokratizmin, plüralizmin, fikir müxtəlifliyinin bir daha möhürünü vurdunuz. Hər bir deputat öz çıxışında azaddır. Əlbəttə, müəyyən çərçivələr daxilində. Eşq olsun Sizə!

Mənim həmkarlarım Siyavuş Novruzov, sonra isə Aydın Hüseynov da bir qədər Yeni Azərbaycan Partiyasının

yaranması gününü xatırlatdılar. Bu gün Azərbaycanın ictimai-siyasi həyatında misilsiz bir gündür. Təkcə Azərbaycanınmı? Həm də Cənubi Qafqazın və keçmiş SSRİ-nin. Ona görə ki, Heydər ƏIiyevdən partiya yaratmasını bütün SSRİ gözləyirdi. Elmira Əmrah qızı, – Allah ona rəhmət etsin, – bunu “BBC”də, “Azadlıq”da yayanda çox güclü reaksiyalar gəldi və bütün dünya maraqlanmağa başladı.

Daha bir fakt. SSRİ-nin həm keçmiş məşhur dövlət başçıları, həm də siyasi xadimləri bu gün danışmağa başlayıblar ki, Heydər Əliyev qalsa idi, birinci katib olsa idi, heç bu SSRİ dağılmazdı. Etirafa baxın, qiymətə baxın... Amma keçdi, qatar gedib.

Hörmətli xanım sədr, mən kiçik bir xatirə danışacağam. Çünki burada xeyli cavan deputatlar var, bunların perspektivləri var, bunlar gələcəkdə vəzifələrə gedəcəklər. Eyni zamanda, sözüm nazirlərədir. Təsis konfransı qurtardı, hamımız Naxçıvan Ali Məclisinin kiçik iclas zalına topландıq. Heydər Əliyev seçilmiş ilk Siyasi Şuranın iclasına başladı. 51 nəfərdən ibarət idi. Bayaq hansı isə nəşrdə 55 nəfər oxudum. 55 deyil, 51 nəfər idi. O dedi: “Sizin hamınız gələcəkdə böyük insanlar olacaqsınız”. Mən bunu yazılarımda təsvir etmişəm. Sadəcə, camaatın öz xəyalına buraxıram ki, görün, oradakı adamlar göyün neçənci qatına uçdular. Ümummilli Lider dedi ki, sizin yanınıza cürbəcür insanlar gələcək, siz onları qəbul etməyi və dinləməyi öyrənin. Dinləmək mədəniyyətiniz olsun. Hətta onlardan eləsi olacaq ki, sizin babanızdan başlayacaq. Guya sizə yaxınlığını sübut etmək üçün. Müharibədə bir olmuşuq, atanızla sanatoriyada olmuşuq və sair və ilaxır. Diqqətlə dinləyin, səbirsizlik etməyin, onun sözünü kəsməyin, dərhal çay gətizdirin, əlinizi birinci şokolada

uzadın, bəlkə bu adam heç bir aydır şokolad yemir. Onun bütün dediklərinə həssaslıqla qulaq asın. Yerinə yetirə bilməyəcəyiniz bir hadisə olsa, onu elə yola salın ki, sizdən inciməsin, qapının ağzınacan ötürün. Onu gələrkən kabinetinizin ortasında qəbul edin, xidməti stolunuzda oturub onunla danışmayın. Sizin xidməti stolunuzun qabağında kiçik bir miz olacaq. Orada onunla üzbəüz oturun. Sonra onu yola salanda köməkçilərinizdən birinə deyin ki, onu pilləkənlərdən ötürsün, qapının ağzında onu gözləyən adama təhvil versin, sonra geri qayıtsın. Bunlar rəhbərliyin əlifbasıdır. Kimsə deyər ki, elə mən elə edirəm də. Sən edərsən də. 33 il bundan qabaq belə deyildi. 33 il bundan qabaq bu kişi bu millətə bu vəsiyyətləri etdi və necə deyərlər, yadigarlarını qoyub getdi. Ot kökü üstə bitər.

Dünən də televiziyada "Xəbərlər" proqramından əvvəl göstərdilər. Şuşanın gözəl küçələrinin birində Prezident İlham Əliyev yeriyir, balkonlardan, açıq pəncərələrdən onu salamlayırlar, xoş sözlər deyirlər. Birdən Prezidentin gözü yaşlı bir adama sataşdı. Mən bu camiyəyə yaxınam, amma onu tanımadım. Prezident dedi: "Yeni əsərlər var?" O, dərhal içəri girdi, böyük bir tablo ilə çölə çıxdı və başının üstündə yelləyərək dedi: "Var, cənab Prezident, var". Prezident ona uğurlar arzuladı. Siz, yəqin, o kişinin sifətindəki işığı, gözündəki parıltını görmədiniz. İnsana yanaşmaya bax. Mən əminəm ki, o rəssamın ömrü on il artdı. Çünki yaradıcı adama ürəyinin şah damarına toxunan belə sözlə müraciət etmək onu yaşatmaq deməkdir. Prezidentin diqqətinə baxın. Yüz minlərcə adamla görüşür, amma o kişini tanıdı ki, bu, rəssamdır.

Sonra bir vətəndaşımızla görüşüb dedi: "Maşallah, sənin də yumruğun dəmir kimidir". Gülümsədilər və Prezident onu qucaqladı. Bu, düşmənlərə mesaj idi. Bizim

dəmir yumruğu olan gənclərimiz çoxdur, başınızı əzərlər, bizim torpağa bir də hücuma keçməyin, bizimlə müharibə etmək fikrinə düşməyin. Görün, kiçik bir mesajla insanlara nələr bəxş edir. Qardaşlar, belə olaq. Mənə deyirlər, 5 gündür, gəlirəm, nazir məni qəbul etmir. Mən 4 nömrə ilə zəng edirəm, deyirəm ki, xahiş edirəm, Həsənov Hüseyn...

**Sədrlik edən.** Səyyad müəllim, alovlu, emosional çıxışınıza görə çox sağ olun. Siz əsl publisistsiniz, onu da deyim. Ancaq Siz "nazir" deyirsiniz. Bax, dünən mən Sizi Teymur Musayevlə burada görüşdürdüm. Özünüz də etiraf etdiniz, mən gərək belə görüşlər təşkil edim ki, burada da səhv fikirlər... Səhvi nəyə deyirəm?..

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bircə dəqiqə. Dünən "xəstəxana" dediniz. Gördünüz, Teymur müəllim, çox ziyalı insan orada Sizin cavabınızı verdi ki, xəstəxana bizə aid deyil. İndi bunların hamısını düz deyirsiniz, xatırladırsınız. Bəli, dahi Ulu Öndərin sizlərə, yəni orada yanında olan insanlara verdiyi tövsiyələr gərək hamının yaddaşında ömürlük qala. Mən bunu deyirəm. Dediyinizə görə çox sağ olun. Ancaq yenə də, Sizin hansı istəyiniz olsa, hansı bir məsələniz həll olunmasa, xahiş edirəm, o məktubları çatdırın. Şəxsən Şakir müəllimə tapşırıram, Səyyad müəllimin məktublarının hamısını bir-bir yoxlayın, gedib çatsın. Oldu, Səyyad müəllim, çox sağ olun. Çaşdırdınız məni.

Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli media nümayəndələri. Müzakirəyə çıxarılan bu genişmiqyaslı qanun layihəsi dövlət idarəçiliyinin müxtəlif sahələrində uzun illər yaranmış normativ parçalanmanı aradan qaldırmaq və sistemin ümumi effektivliyini yüksəltmək məqsədi daşı-

yır. Şübhə etmirəm ki, layihədə edilən hər bir dəyişiklik konkret sahəyə ölçülə bilən təsir göstərəcək.

Çıxışımın davamından öncə burada dəyərli həmkarlarımın səsləndirdiyi bəzi fikirlərlə bağlı öz mövqeyimi açıqlamaq istəyirəm. Vergi güzəştləri əbədilik olaraq tətbiq oluna bilməz. Ümumiyyətlə, güzəştlərin fəlsəfəsində onun konkret sahənin inkişafına xidmət etməsi dayanır. Bu, sosial xarakterli bir aksiya deyil. Əgər hər hansı bir sosial xarakterli aksiya həyata keçirilirsə, dövlət özünün sosial siyasəti çərçivəsində bu və ya konkret şəxsə dəstəyini və yardımını göstərir. Vergi güzəştlərinin məqsədi konkret sahə üzrə aparılan islahatlar çərçivəsində bilavasitə həmin sahənin inkişafına nail olmaqdan ibarətdir. Təbii ki, ayrı-ayrı regionlar üzrə həyata keçiriləndə də həmin regionun spesifikliyi, konkret sahə nəzərə alınmalıdır və hansı regionda hansı sahənin inkişaf etdirilməsinə ehtiyac varsa, dövlət proqramları çərçivəsində həmin sahəyə uyğun olaraq, vergi güzəştləri tətbiq olunmalıdır. Belə olduğu təqdirdə, şübhəsiz ki, bu, konkret sahənin inkişafına səbəb olur. Əks təqdirdə isə bu, motivasiya rolunu oynamır, ələbaxımlılıq yaradır və sahibkarı dövlətdən asılı vəziyyətə salır.

Bütövlükdə, Vergi Məcəlləsi və "Gömrük tarifi haqqında" Qanuna edilən dəyişikliklər iqtisadiyyatımızda şəffaflığın artırılması istiqamətində, qənaətimə görə, önəmli addımdır. Son illərdə aparılan islahatlar nəticəsində kölgə iqtisadiyyatının payı 2015-ci illə müqayisədə təxminən iki dəfə azalıb, lakin potensial tam istifadə olunmayıb. Nağdsız hesablaşmaların daha geniş tətbiqi dövriyyənin şəffaflığını artıracaq, gömrük dərəcələrinin hesablanmasında hüquqi qeyri-müəyyənlikləri aradan qaldıracaq və sahibkarlar üçün daha sabit iqtisadi mühit formalaşdıracaq.

Praktik təsiri isə ondan ibarətdir ki, vergi daxilolmalarında əlavə 3–5 faiz artım potensialı yarana bilər və bu da birbaşa sosial proqramların maliyyələşdirilməsinə yönələ bilər.

Son illərdə ölkədə nağdsız ödənişlərin həcmi on dəfədən çox artıb. Lakin qanunvericilikdəki boşluqlar bu dinamikanın davamlılığını müəyyən qədər məhdudlaşdırırdı. Dəyişikliklər nağdsız hesablaşmalarda nəzarəti gücləndirir, əməliyyat xərclərini azaldır və bank sektorunda likvidliyi artırır. Bu isə həm sahibkarlar, həm vətəndaşlar, həm də dövlət üçün əlavə iqtisadi fayda deməkdir.

Layihənin ən önəmli cəhətlərindən biri hüquqi mühitdə harmoniyanın yaradılması ilə bağlıdır. Uzun illər müxtəlif qanunlarda eyni anlayışlara fərqli təriflərin verilməsi, eyni mexanizmlərin müxtəlif qaydalarla tətbiqi hüquqi ziddiyyətlərə və icra prosesində ləngimələrə səbəb olurdu. Bu paket həmin ziddiyyətləri aradan qaldırır və qanunların tətbiqində vahidlik təmin edir. Nəticədə dövlət proqramlarının icrası daha koordinasiyalı olacaq, vətəndaşların hüquqlarının qorunması isə daha aydın normativ çərçivəyə əsaslanacaq.

Dəyərli həmkarlar, qanun paketi həm sosial, həm iqtisadi, həm də institusional sahədə sistemli modernləşməni nəzərdə tutur. Onun qəbul edilməsi ilə çoxsaylı vətəndaşımızın tibbi təminatı hüquqi cəhətdən gücləndiriləcək, dövlətin sığorta xərclərinin proqnozlaşdırılması daha dəqiq olacaq, kölgə iqtisadiyyatına qarşı mübarizə güclənəcək, büdcə gəlirlərinin artım potensialı genişlənəcək və dövlət idarəçiliyinin vahid, çevik, müasir hüquqi çərçivədə fəaliyyət göstərməsi üçün daha geniş imkanlar yaranacaq. Bu səbəbdən layihənin birinci oxunuşda qəbul olunması ölkəmizin sosial-iqtisadi inkişaf

strategiyasına tam uyğundur və əsaslıdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Vüqar Rəhimzadə. Buyurun.

**Vüqar Rəhimzadə**. Çox təşəkkür edirəm. Çox hörmətli xanım sədr, əziz dostlar, əziz həmkarlar, mən də müasir müstəqil Azərbaycan dövlətinin tarixində, taleyində mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının yaranması günü münasibəti ilə bütün dostlarımı ürəkdən təbrik edirəm və Ulu Öndərimiz Heydər Əliyevin qurub-yaratdığı və bu gün möhtərəm cənab Prezidentimizin sədr olduğu bir möhtəşəm partiyanın bütün üzvlərini, başda cənab sədrimiz olmaqla, hər birini ürəkdən təbrik edirəm. Doğrudan da, Azərbaycanın tarixində, Azərbaycanın taleyində Yeni Azərbaycan Partiyasının misilsiz və əvəz-olunmaz xidmətləri göz önündədir. Şübhəmiz yoxdur ki, bundan sonra da Azərbaycanın daha da qüdrətlənməsi yolunda Yeni Azərbaycan Partiyasının hər bir üzvü, eləcə də hər bir vətəndaşımız qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün öz üzərinə düşən öhdəliyi yüksək səviyyədə yerinə yetirəcəkdir.

Mənim çox danışmaq fikrim yoxdur. Düşünürəm ki, bu layihələrin birinci oxunuşda müzakirəsi həm də ölkə iqtisadiyyatının gücünün, qüdrətinin göstəricisidir, sıradan bir məsələ deyil. Vergi Məcəlləsi ilə bağlı vergi güzəşt-lərinin tətbiq olunması, təbii ki, ölkənin artan iqtisadi gücünün və eyni zamanda, iqtisadi qüdrətinin böyük mə-nada göstəricisidir. Bu proses, təbii ki, regionların iqtisadi inkişafının daha da dərinləşməsi, daha da təkmil islahat-ların yerinə yetirilməsinə söykənən böyük bir siyasətin tərkib hissəsidir. Hesab edirəm ki, çox əhəmiyyətlidir. Buna təkcə iqtisadi layihə kimi baxmaq, mən düşünürəm

ki, düzgün deyil, bu, həm də böyük bir sosial layihədir. O, vətəndaşlar üçün yeni iş yerlərinin yaradılmasında, yeni istehsal sahələrinin yaradılmasında, kifayət qədər önəmli siyasi proseslərdə vacib əhəmiyyət kəsb edən təsir gücünə malikdir.

Bu baxımdan mən Naxçıvan Muxtar Respublikasına tətbiq olunan vergi güzəştləri ilə bağlı möhtərəm cənab Prezidentimizə ürəkdən təşəkkür edirəm. Biz bəlkə də sıradan baxırıq. 35 il ərzində Naxçıvanın blokadada olmasını mən çox gözəl xatırlayıram. 1990-cı illərin əvvəllərində həftələrlə Azərbaycanın əsas hissəsi ilə əlaqələr kəsilirdi, təyyarələr uça bilmirdi, nəqliyyat vasitələri işləmirdi. Həftələrlə bu əlaqənin olmadığı halda, bu bölgənin – Naxçıvanın hansı vəziyyətdə olduğunu təsəvvür etmək çox da çətin deyil. Bu, təkcə bu gün üçün nəzərdə tutulmur, gələcək üçün nəzərdə tutulmuş böyük layihələrin tərkib hissəsidir. Burada hörmətli həmkarlarımızın da qeyd etdiyi kimi, Zəngəzur dəhlizinin böyük tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikası Azərbaycanın gələcək iqtisadi həyatında mühüm rola malik olacaq. Hesab edirəm ki, bu gün bu vergi güzəştlərinin tətbiq olunması Naxçıvanın yerli istehsalının qaldırılması və yerli istehsal müəssisələrinin yaradılması ilə vətəndaşların, orada yaşayan əhalinin sosial həyatına mühüm təsir göstərəcək. Bu, kifayət qədər önəmli və vacib qərardır, vacib iqtisadi layihələrdən biridir.

Mən bir daha möhtərəm cənab Prezidentimizə təşəkkür edirəm və bu layihələrin hər birinə səs verəcəyəm. Hesab edirəm ki, bu layihələrə səs verməklə Azərbaycanın daha da qüdrətlənməsinə, iqtisadi imkanların daha da artmasına səs vermiş oluruq. Deputat həmkarlarımızdan da bunu dəstəkləməyi xahiş edirəm.

Minnətdaram, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim.

Azər müəllim, sözünüz var? Buyurun.

**Azər Əmiraslanov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, bu gün təqdim etdiyimiz layihə ilə, Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı öz fikirlərini bildirən həmkarlarımızın hər birinə mən təşəkkürümü bildirirəm. Təbii ki, büdcə müzakirələrində olduğu kimi, büdcə zərfinin çox vacib bir tərkib hissəsi olan Vergi Məcəlləsi ilə də bağlı belə müzakirələrin və fikir mübadiləsinin aparılması tamamilə təbiidir. Çünki həm büdcə, həm də vergi məsələləri ictimai xarakter daşıyan məsələlərdir. Bu və ya digər şəkildə vətəndaşların, məmurun, sahibkarın, sektorların maraqları ilə bağlıdır və biz bunu tamamilə təbii hesab edirik.

Bu müzakirələr parlament formatına uyğun olaraq keçirilir. Hörmətli xanım sədr, buna görə biz Sizə təşəkkürümüzü bildiririk. Biz profil komitə olaraq gələcəkdə həm büdcə siyasəti ilə bağlı, həm də vergi siyasəti ilə bağlı müəyyən təkmilləşmə məsələlərində səslənən bu fikirləri də nəzərə alıb aidiyyəti qurumlarla birlikdə işləyə bilərik.

Mən bir məqamı qeyd etmək istərdim. Ümumiyyətlə, tək bizdə deyil, dünyada qəbul olunmuş belə bir tendensiya var ki, büdcə müzakirələri zamanı, bir tərəfdən, klassik büdcə populizmi özünü göstərir. Bu, hər yerdə belədir. Amma büdcə populizmi həm də bir maliyyə realizmi ilə uzlaşmalıdır. Biz reallıqları da nəzərə almalıyıq. Bir neçə gün əvvəl büdcə zərfini təqdim etdik və büdcə zərfində əsas götürülən prinsiplər, yanaşmalar, təbii ki, Vergi Məcəlləsində də əsas götürülməlidir və uzlaşmalıdır. Biz büdcə zərfində qeyd etdik ki, əsas məsələ xərclərin opti-

mallaşdırılmasıdır, dayanıqlılıqdır. Deməli, biz, eyni zamanda, vergi dərəcələrinin optimallaşdırılmasını nəzərə almalıyıq. Dayanıqlı büdcə büdcə üçün dayanıqlı gəlirlərin formalaşdırılmasını, vergi bazasının genişləndirilməsini tələb edir. Bu baxımdan hər iki sənəd bir-birini tamamlayır. Yəni büdcə zərfinə səs verib Vergi Məcəlləsinin əleyhinə olmaq, – hörmətli həmkarım Aydın müəllim də qeyd etdi, – bu, bir paradoksdur, təzaddır. Çünki Vergi Məcəlləsinə dəyişikliklər nəticəsində o rəqəmlər bizim büdcənin gəlirlərini formalaşdırmış olur.

Hər bir halda büdcə qanunla təsdiq olunan proqnoz rəqəmlərdir. Biz bu rəqəmləri real xəzinəyə, büdcə vəsaitlərinə çevirmək üçün vergi yığımını təmin etməliyik, gəlirlər formalaşmalıdır, vergi sistemi effektiv qurulmalıdır. Bu gün təqdim edilmiş layihə həm də vergi inzibatçılığını yaxşılaşdırır. O da nəzərə alınmalıdır ki, vergi sistemində bir tarazılıq təmin edilməlidir, yəni qızıl orta, kompromis təmin olunmalıdır. Həm sektorlar arasında sahibkarlar, vətəndaşlar, region, mərkəz, hətta məmurlar üçün bu qızıl ortanın müəyyən edilməsi vacibdir. Birtərəfli şəkildə bu məsələlərə yanaşılması doğru olmazdı.

Hörmətli həmkarımız Qüdrət müəllim qeyd etdi. Müəyyən hüquqi formal istinadlar ola bilər, vergi ilə bağlı arayışlar da təqdim oluna bilər. Amma bu gün dövlətimiz tərəfindən vergi sisteminin, vergi güzəştlərinin qiymətləndirilməsinin çox mükəmməl bir sistemi yaradılıbdır. Vergi güzəştləri reyestri hazırlanıbdır. Bu sistem iki istiqaməti müəyyənləşdirir. Bir tərəfdən, büdcəyə təsirlərin, itkilərin qiymətləndirilməsi, o biri tərəfdən də, tətbiq olunan güzəştlərin, bütövlükdə, sahəyə təsiri və yaxud da səmərəliliyin qiymətləndirilməsi. Bu reyestr şəffafdır, belə qiymətləndirilmələr davamlı olaraq aparılır. Hər bir və-

təndaş bu sistem vasitəsi ilə vergilərin, vergi sisteminin, dərəcələrinin, rejiminin bizim büdcəyə təsirini görə bilər, hətta o məbləği sistem vasitəsi ilə əldə edə bilər. O halda hər hansı bir arayışın əldə edilməsi aktuallığını itirir, amma razıyam ki, bu son illər vergi sistemində, büdcə sistemində təkmilləşmələr nəzərə alınaraq biz təkmilləşdirmə istiqamətində qanunvericilik aktlarına da baxa bilərik.

İkinci bir məqam. Vergi Məcəlləsinə dəyişikliklərdən sonra biz daxilolmalarla, gözlənilən gəlirlərlə əgər indiyə kimi müəyyən edilmiş vergi güzəştlərini müqayisə etmiş olsaq, dəfələrlə çox böyük bir fərq var. Biz bunu da nəzərə almalıyıq. Vergi Məcəlləsi təqdim edilərkən biz komitə olaraq birinci növbədə müvafiq dövlət orqanlarında müzakirələr nəticəsində iki suala cavab alırıq. Birincisi, vergi şərtləri ağırlaşmır ki? Vətəndaşa və sahibkara bu vergi yükü yaratmır ki? Həm Maliyyə Nazirliyi, həm də İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən, bizim həmkarlarımızın təqdimatından da bir daha aydın oldu və tam əsaslandırılmış şəkildə ortaya qoyuldu ki, belə bir ağırlaşma yoxdur, vergi yükü ağırlaşmır. Növbəti inkişaf mərhələsində vergilər hesabına yığılmış gəlirlər gələcəkdə, özü də həlledici, məsuliyyətli bir dövrdə qarşıda dayanan çağırışlarımız üçün də maliyyə təminatı yaradacaq.

Təşəkkür edirəm, hörmətli xanım sədr.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Yenə də ətraflı məlumat verdiniz.

Mən isə düşünürəm ki, burada müxtəlif təkliflər də oldu və yaxşı olardı ki…

Razi müəllim, yazılmısınız? Sualınız var? Çünki mən indi cənab nazirə söz vermək istəyirəm.

Çox hörmətli Sahil müəllim, Sizin sözünüz var? Çünki

burada təkliflər, suallar oldu. Xahiş edirəm, buyurun.

**Sahil Babayev,** *Azərbaycan Respublikasının maliyyə naziri.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli millət vəkilləri, ilk öncə bu konstruktiv müzakirəyə görə, verilən təkliflərə görə öz minnətdarlığımı bildirirəm. Düşünürəm ki, bizim qarşılıqlı əməkdaşlığımız həm büdcə prosesi çərçivəsində büdcə daxilolmalarının sistemli şəkildə həyata keçirilməsi, düzgün siyasətin müəyyən edilməsi fiskal gəlirlərimizin və fiskal xərclərimizin optimallaşdırılması baxımından önəmlidir. Eyni zamanda, Azərbaycanda sahibkarlığın, iqtisadiyyatın inkişafı üçün müvafiq rejimin yaradılması baxımından çox önəmlidir. Artıq təqdim olunan bir çox yeni güzəştlər, yaxşılaşdırmalar, inzibati prosedurların təkmilləşdirilməsi ilə bağlı məsələlər qeyd olundu. Mən çox detallara varmayacağam. Ümumilikdə, bu zərf çərçivəsində həm Naxçıvan Muxtar Respublikamız üçün çox mütərəqqi, güzəştli bir rejim yaradılır, həm iqtisadiyyatın müxtəlif sektorları üçün yeni güzəştlər tətbiq olunur, həm də bir sıra vergi dərəcələrinin azaldılması nəzərdə tutulur. Kiçik, orta sahibkarlıq üçün ciddi güzəştlər nəzərdə tutulur. Bunlar barədə Elnur müəllim daha ətraflı, daha detallı məlumat verər.

Mən bir sıra makroparametrlərə toxunmaq istəyirəm ki, Azərbaycanda mövcud olan vergi rejiminin təsirləri nədən ibarətdir. Qeyd olundu ki, bizim qeyri-neft iqtisadiyyatımızın inkişafı üçün əlverişli rejim olmalıdır. Əlbəttə, bu, belədir və hökumət olaraq da biz bu fikri bölüşürük. Məhz indiyə kimi aparılan siyasət, islahatlar da bundan ibarət olubdur. Rəqəm olaraq baxsaq, son 5 il ərzində Azərbaycanın qeyri-neft ÜDM-i, – yəni biz 2026-cı ilə proqnoz olunan rəqəmi 5 il öncəsi ilə müqayisə etsək, – nominal

rəqəm olaraq 63 faiz artır. Cəmi 5 illik dövrdə qeyri-neft ÜDM-də nominal olaraq 63 faiz, real rəqəm olaraq isə 34 faizlik bir artım nəzərdə tutulur. Bunun özü elə ən böyük nəticədir ki, qeyri-neft sektoru üzrə çox ciddi, güzəştli bir rejim var. Bu rejim imkan verir ki, Azərbaycanda həm kiçik, orta sahibkarlıq, həm də iqtisadiyyatın qeyri-neft sektoru aktiv şəkildə inkişaf etsin.

Digər bir parametrə – qeyri-neft vergilərinin ÜDM-də payı məsələsinə növbəti ildə nəzər salaq. Növbəti ildə Azərbaycanda bu rəqəm cəmi 13,1 faiz olacaqdır və cari ilki rəqəmdən, faktiki icradan, demək olar ki, fərqlənməyəcəkdir. Bunun özü də kifayət qədər çox aşağı rəqəmdir və aşağı vergi yükünün olduğunun ən böyük göstəricilərindən biridir.

Bizim ümumi iqtisadiyyatımızda vergi yükü 15–19 faizdir. Hörmətli həmkarlarımız, hörmətli deputatlarımız region ölkələrinə, qonşu ölkələrə, digər ölkələrə baxa bilərlər, bu, ən aşağı vergi yükü olan rejimlərdən biridir. Yəni ümumi iqtisadiyyatımızda da cəmi vergi yükü 15,9, qeyri-neft iqtisadiyyatımızda isə qeyri-neft vergilərinin yükü 13,1 faizdir. Bu parametrlərin hər biri göstərir ki, Azərbaycan iqtisadiyyatın, sahibkarlığın, özəl sektorun inkişafı üçün çox güzəştli və əlverişli bir rejim yaradıbdır.

Eyni zamanda, vergilər dövlət büdcəsinə daxilolmaların əsasını təşkil edir. Onun büdcəyə təsirləri barədə də əsas vacib parametrlərə toxunmaq istəyirəm. Növbəti ildə uzun müddət həm hörmətli millət vəkillərimiz tərəfindən, həm beynəlxalq təşkilatlar tərəfindən, həm də hökumət daxilində müzakirələr zamanı hər zaman dövlət büdcəsinin gəlir və mədaxil hissəsinin daxilolmalarının dayanıqlı olması, neft amilinin təsirinin azaldılması və bu istiqamətdə siyasətin aparılması qarşımızda bir hədəf kimi qoyul-

muşdu. Bu istiqamətdə aparılan işlərin nəticəsi olaraq gələn il dövlət büdcəsinin gəlirlərinin 57 faizi, icmal büdcəmizin gəlirlərinin isə 63 faizi məhz qeyri-neft sektorundan daxilolmalar hesabına təmin olunacaqdır. Bu da Azərbaycan tarixindəki ən yaxşı göstəricidir. Yəni faktiki olaraq artıq biz icmal gəlirlərimizin, icmal büdcələrimizin üçdə ikisini neft amilindən tamamilə azad etmişik və bu siyasət davamlı olaraq həyata keçiriləcəkdir.

Digər bir rəqəmə baxdıqda dayanıqlılığımızın göstərilməsi üçün çox önəmli məsələ icmal büdcə qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-də payı məsələsidir. Növbəti il üçün bu hədəf 19 faizə endirilib. Cari ildən 3,4 faiz aşağı göstərilibdir. Bu siyasət də davamlı olaraq həyata keçiriləcəkdir və 2029-cu ilə, yəni ortamüddətli 1+3 illik dövrümüzün sonuna biz bu rəqəmi 13 faizə endirmək istəyirik ki, bu da həm büdcə, həm də maliyyə dayanıqlılığı baxımından çox önəmli bir nəticə olacaqdır, neft-qaz amilindən asılılığımızı ciddi şəkildə azaldacaqdır.

Büdcənin cari xərclərinin örtülmə səviyyəsi. Bilirsiniz ki, dövlət büdcəsinin icrası zamanı müdafiə olunan xərclərimiz var. Onların böyük əksəriyyəti də cari xərclərdə toplanıbdır və bu xərclər hər zaman müdafiə olunduğuna görə onların məhz neft-qaz qiymətlərindən asılı olmayan, qeyri-neft sektorundan gəlirlər hesabına qarşılanması qarşımızda olan ana hədəflərdən biri idi. Növbəti ildə biz bu rəqəmi 88 faizə qədər qarşılaya biləcəyik. Bu da cari illə müqayisədə təqribən 7 faiz artıqdır. Burada ortamüddətli hədəfimiz ondan ibarətdir ki, 2029-cu ildə bu rəqəm 100 faizə çatacaqdır. Yəni həm büdcənin dayanıqlılığı, sağlamlığı, kənar amillərin büdcəyə təsirinin azaldılması baxımından təklif olunan bu zərf bizə ciddi imkanlar, şərait yaradır. Eyni zamanda da,

makroiqtisadi və fiskal baxımdan bu yaradılan yeni rejim çox əlverişlidir, kifayət qədər güzəştlidir. Artıq Azər müəllim də qeyd etdi ki, güzəştlərin qiymətləndirilməsi reyestri açıq bir reyestrdir. Bütün həmkarlarımız bu qiymətləndirmənin nəticələrini, rəqəmləri görə bilərlər. Bu gün Azərbaycanda qeyri-neft sektorunda tətbiq olunan cəmi vergilərin dərəcəsinin 13,1 faiz olduğunu nəzərə alsaq, bu, həm region, həm də, ümumiyyətlə, MDB məkanında, digər ölkələrdə çox əlverişli bir rejim hesab olunur.

Düşünürük ki, bu istiqamətləri nəzərə aldıqda bu büdcə zərfi növbəti il ərzində həm iqtisadiyyatımızın inkişafı, həm sahibkarlığın inkişafı, həm də özəl sektorumuzun genişlənməsi üçün kifayət qədər böyük imkanlar yaradır. Burada yaradılan yeni mexanizmlər həm qeyri-formal məşğulluğun azaldılması istiqamətində tədbirlərin davam etdirilməsi üçün, həm ümumilikdə, qeyri-formal iqtisadiyyatın payının azaldılması üçün, vəsaitlərin, qeyri-nağd ödənişlərin payının artırılması üçün vacib bir postulat yaradır.

Bir daha yekunda yaradılmış bu imkana, şəraitə görə Sahibə xanıma təşəkkürümü bildirmək istəyirəm. Hörmətli deputatlarımızı büdcə zərfini dəstəkləməyə dəvət edirəm.

**Sədrlik edən.** Sahil müəllim, çox sağ olun. Həmişə olduğu kimi, yenə də Siz bütün suallara, təkliflərə öz münasibətinizi bildirirsiniz.

Mən düşünürəm ki, indi Elnur müəllimə söz verim.

Hörmətli həmkarlar, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini Elnur müəllim Əliyevə söz verirəm. Elnur müəllim, buyurun.

**Elnur Əliyev,** *Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Bütün həm-

karları salamlayıram. Mən də öz növbəmdə millət vəkillərinə səsləndirdikləri fikirlərə, rəylərə görə təşəkkür etmək istəyirəm.

Sahibə xanım, icazənizlə, dünən dövlət büdcəsinin müzakirəsi zamanı qeyd olunan regionlarımızda sahibkarlığa göstərilən dəstək tədbirləri ilə bağlı qısaca bir neçə rəqəmi səsləndirmək istərdim. Çünki bir neçə deputatımız bu mövzunu sorğu etdi. Eyni zamanda, bu gün müzakirə olunan həm Vergi Məcəlləsinə düzəlişlərlə bağlı, həm də səsləndirilən qeydlərlə bağlı fikirlərimi bölüşəcəyəm. Dünən səsləndirilən mövzu ilə bağlı bildirmək istərdim ki, regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə diqqət həmişə hökumətin diqqətində olubdur. Müxtəlif maliyyə alətləri – Sahibkarlığın İnkişafı Fondu, Azərbaycan Biznesinin İnkişafı Fondu vasitəsi ilə bu gün də dəstək göstərilir. Eyni zamanda, təşviq mexanizmləri, Vergi Məcəlləsində əks olunan bir sıra azadolmalar və güzəştlər bunun əyani nümunəsidir.

Məlumat üçün bildirmək istərdim ki, cari ilin 10 ayında 290 milyon kredit vəsaiti Sahibkarlığın İnkişafı Fondu xətti ilə ayrılıb və bu vəsaitin 66 faizi, təxminən 193 milyon manatı Bakı və Abşeron iqtisadi rayonları istisna olmaqla, ölkənin digər hissəsinə yönəlibdir. Bu haqda danışarkən qeyd etməliyəm ki, 5008 regional layihədən söhbət gedir. Yəni regionlarda biz 5000-dən artıq layihələrə vəsait yönəltmişik. Həmin layihələrin ümumi dəyəri 655 milyon manatdır. Əslində, çox sevindirici bir xəbərimiz bundan ibarətdir ki, bu sahibkarların, yardım göstərdiklərimizin 89 faizi mikro, kiçik və orta sahibkarlardır. Onlara 258 milyon vəsait ayrılıbdır. Bakı və Abşeron iqtisadi rayonlarında yerləşən Sumqayıt sənaye parkı və Balaxanı sənaye zonası istisna olmaqla, regionlarımızdakı

sənaye zonalarına 80 milyon manat investisiya qoyuluşu həyata keçirilibdir. Həmin layihələr üzrə növbəti müddət ərzində 1 milyard 129 milyon əlavə investisiyanın qoyulması nəzərdə tutulub.

Bu gün Vergi Məcəlləsinə düzəlişlərlə bağlı təkliflər paketinə həmkarların səsləndirdiyi fikirlərlə bağlı qeydlər bildirmək istərdim. İlk növbədə hörmətli Azər müəllimə təqdimata görə təşəkkür edirəm. Qısaca olaraq bildirmək istərdim ki, Vergi Məcəlləsinin düzəliş paketi üç istiqaməti əhatə edir. Birinci istiqamət investisiya mühitinin, sahibkarlıq fəaliyyətinin təşviq olunması, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılmasıdır. İkinci istiqamət vergi daxilolmalarında büdcə gəlirlərinin tənzimlənməsidir. Üçüncü istiqamətimiz vergi inzibatçılığı, vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi və kölgə iqtisadiyyatına qarşı mübarizədir. Bununla bağlı aşağıdakıları bildirmək istərdim.

Bizim əməkhaqqı islahatları ilə bağlı mövzulara toxunuldu. Əməkhaqqı sahəsində görülən islahatlar şəffaflığın artırılmasına yönəlmişdir. Məlumat üçün bildirmək istərdim ki, qeyri-neft-qaz özəl sektordur. 8000 manata qədər əməkhaqqının gəlirlərinin azad olunması 2019-cu il yanvarın 1-dən 2025-ci il noyabrın 1-nə qədər 481 min əmək müqaviləsinin artmasına səbəb olubdur. Bu gün bu rəqəm 1 milyonu ötübdür. Sektorda çəkisi, bugünkü əmək müqavilələrində ümumi pay 38 faizdən 54 faizə qalxmışdır. Bu o deməkdir ki, gündəlik 200 iş yeri yaradılıbdır və ya əmək müqaviləsi aşkar olunmuşdur.

Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində büdcədən ayırmaların payı 2018-ci ildəki 35,6 faizdən 2024-cü ildə 17,5 faizə düşmüşdür və bu müddətdə aktiv vergi ödəyicilərimizin sayı 2 dəfə artıb, 845 min rəqəmi ötmüşdür.

Muzdlu işlə bağlı gəlir vergisi üzrə 2026-cı il yanvarın 1-də güzəştlərin bitməsi hökumət daxilində kifayət qədər müzakirə olunubdur. Qüdrət müəllim səsləndirdi ki, Vergi Məcəlləsinin 2-ci maddəsində istinad olaraq məlumat vaxtında təqdim olunmur. Bununla bağlı rəyi bildirmək istərdim. Güzəştlərin müddətinin azad olunması müzakirələrə səbəb olubdur. Çünki hesab etmişik ki, bu, kifayət qədər əlavə yük yarada bilər. Bu mənada istər İqtisadi Şurada, istərsə də ayrıca qurumlarda müzakirələrin aparılması kifayət qədər vaxt aparıb. Bu mənada sənəd gecikmə ilə təqdim olunubdur. Cənab Prezidentin təşəbbüsü ilə əmək bazarında leqallaşmanın və yaradılmış münbit mühitin davam etdirilməsi məqsədi ilə tapşırığımız daha aşağı vergi yükünün və yumşaq keçidin təmin edilməsi idi. Bu məqsədlə də bu gün diqqətinizə təqdim olunan Vergi Məcəlləsinə düzəlişlər müzakirə olunur.

Burada səsləndirilən fikirlərlə bağlı bir neçə qeydi bildirmək istərdim. Qüdrət müəllimin səsləndirdiyi nağdlaşdırma rəqəminin limiti ötən ilki düzəlişə əsasən 30 min manatdan 50 min manata qaldırılmışdır.

Göydəniz Qəhrəmanovun qaldırdığı mövzu – regional güzəştlərin olması, eyni zamanda, turizm sferasında güzəştlərin verilməsi ilə bağlı bildirmək istərdim ki, regional turizm sektorunda güzəştlər mövcuddur. Əmlak, torpaq vergisindən 75 faiz həddində azadolmalar var. Bu, eyni zamanda, turizm və rekreasiya zonalarına da şamil olunur.

Hörmətli Azər Badamovun qaldırdığı mövzu – 200 mindən 400 min manata qədər qaldırılması mövzusu nağd dövriyyəyə şamil oluna bilərmi? Hesab edirik ki, bu, əslində, kölgə iqtisadiyyatının artmasına səbəb olacaq. Bu mənada məqsədli şəkildə yalnız nağdsız dövriyyəyə münasibətdə bu rəqəmin 200 mindən 400 min manata qədər qal-

dırılması gündəmdədir.

Hörmətli Razi Nurullayevin qaldırdığı mövzu – fiziki şəxslərin sosial sığorta yükünün artması. Əgər qanunvericiliyə düzəliş paketi olmasa idi, yəni bu halda yanvar ayından həmin fiziki şəxslərin sosial sığorta yükü minimum əməkhaqqının 50 faizi məbləğində, yəni 200 manat olacaqdı. Məlumat üçün bildirmək istəyirəm ki, bizim 140 mindən artıq fərdi sahibkarımız var. Həmin o 140 mindən artıq fərdi sahibkarın dövriyyəsinin 2 faiz həcmində cəlb olunması onlar üçün daha yüngül bir rejim vəd edir. Nəzərə alaraq ki, həmin sahibkarların təxminən 75-80 faizinin dövriyyəsi 45-50 min manat arasında dəyişir, bu o deməkdir ki, həmin vergi yükü 2 faiz olmaqla təxminən 70-75 manat olacaq. Əgər bu güzəşt olmasa idi, təxminən 200 manat olacaqdı. Eyni zamanda, burada başqa bir məqamı da qeyd etməliyəm ki, rəqəmin daha yuxarı həddə artmaması üçün biz qanunvericilik paketində yuxarı hədd qoymuşuq ki, dövriyyənin olmasından asılı olmayaraq, minimum əməkhaqqından, yəni 400 manatdan artıq ola bilməz.

Qeydlərimi burada bitirirəm. Eyni zamanda, hörmətli Tahir Mirkişili və digər həmkarların bildirdiyi təkliflərə görə təşəkkür edirəm. Biz müzakirələrdə bunu nəzərə alacağıq, eyni zamanda da, əgər belə bir istək olarsa, onları da dəvət edəcəyik.

Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elnur müəllim. Bəli, təkliflərlə bağlı nə zaman istəsəniz, deputatlarla da görüşə bilərsiniz. Biz Milli Məclisdə də həmişə bunu təbliğ edirik.

Razi müəllim, mən elə başa düşdüm, sualınız yoxdur. Həm də yazılmamısınız. Suala da cavablar var, biz eşitdik. Bilmirəm, Siz eşitdiniz, yoxsa yox? Əgər sualınız olsa,

sonra da yaxınlaşa bilərsiniz. Həm Elnur müəllimə, həm Sahil müəllimə. Yaxşı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, mən düşünürəm, biz kifayət qədər müzakirə etdik. Bizə cavablar da, araşdırmalar da verildi. İndi isə mən xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Biz indi növbəti məsələlərə keçirik. Hörmətli həmkarlar, 10 dəqiqədən sonra fasilə vaxtıdır. Əgər etiraz etmirsinizsə, fasiləsiz, çünki bizim iki məsələmiz qalıb. Hər iki məsələ Milli Məclisin qərar layihələridir. Bu layihələr Milli Məclisin və Hesablama Palatasının xərclər smetaları ilə bağlıdır. Qeyd edim ki, biz bu qərar layihələrini müzakirə edəcəyik, amma bu gün qəbul etməyəcəyik. Büdcə zərfi sənədlərinin üçüncü oxunuşunda onlarla birlikdə qəbul ediləcək.

Beləliklə, hörmətli həmkarlar, biz gündəliyin 7-ci məsələsinə keçirik. Bu məsələ Azərbaycan Respublikası Milli Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında qərar layihəsidir. Məsələyə dair məlumat vermək üçün Milli Məclisin İşlər müdiri hörmətli Firudin Hacıyevə söz

verirəm. Firudin müəllim, buyurun.

**Firudin Hacıyev,** *Milli Məclisin İşlər müdiri.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli sədr, hörmətli deputatlar, bildiyiniz kimi, Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 52-ci maddəsinə əsasən Milli Məclisin xərclər smetası növbəti ilin dövlət büdcəsinə baxılarkən təsdiq edilir. Gələn il üçün tərtib olunmuş xərclər smetasının layihəsi sizə təqdim edilmişdir.

Milli Məclisin və onun Aparatının 2026-cı il üçün xərclər smetasının layihəsi qanunvericilikdə nəzərdə tutulan qaydalara uyğun olaraq, ştat cədvəlləri, inzibati binaların mühəndis qurğularına xidmət göstərən təşkilatlarla bağlanmış müqavilələr və proqnozlar əsasında tərtib edilmişdir.

Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində Milli Məclisin və onun Aparatının saxlanılması üçün 52 milyon 74 min 310 manat vəsait nəzərdə tutulmuşdur.

Bildirmək istəyirəm ki, xərclər smetasının ümumi dəyərinin 75,88 faizini əməkhaqqı fondu və əməkhaqqı ilə əlaqədar ayırmalar təşkil edir.

2025-ci ildə Azərbaycan parlamentinə xarici ölkələrdən gələn qonaqların və Milli Məclis deputatlarının xarici səfərlərinin, eləcə də ölkədaxili ezamiyyətlərinin sayı əvvəlki illərlə müqayisədə xeyli artmışdır.

Bundan başqa, 2025-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin təşkilatçılığı ilə respublikamızda və xarici ölkələrdə bir sıra beynəlxalq səviyyəli tədbirlər keçirilmişdir.

2025-ci il üçün Milli Məclisin xərclər smetasında əksər maddələr üzrə malların, işlərin və xidmətlərin (dəftərxana, təsərrüfat ləvazimatı, kompüterlər, katric və server avadanlığı, mebel dəstləri, kreslolar, nəqliyyat vasitələrinin

əsaslı və cari təmiri, mətbəə və çap işləri, illik xidmətlər, təmir işləri və sair) satın alınması "Dövlət satınalmaları haqqında" Qanunun müvafiq maddəsi tətbiq edilməklə tender və digər satınalma metodları ilə həyata keçirilmişdir.

Nəzərinizə çatdırmaq istəyirəm ki, Milli Məclisin deputatlarının, Aparatın və İşlər İdarəsinin əməkdaşlarının xidməti otaqlarında istismara yararsız hala düşmüş kompüterlər yeniləri ilə əvəz edilmişdir. Bu işlər mütəmadi olaraq bu gün də davam etdirilir.

Hörmətli sədr, hörmətli deputatlar, 2026-cı ilin dövlət büdcəsində Milli Məclis üçün nəzərdə tutulmuş xərclər smetasına dair əlavə açıqlamaya ehtiyac olduğu təqdirdə, suallarınıza cavab verməyə hazıram.

Sizdən Milli Məclisin 2026-cı il üçün xərclər smetası layihəsinin təsdiq edilməsinə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Firudin müəllim.

Qanun layihəsi ilə bağlı kim isə çıxış etmək istəyir? Görürəm ki, yazılan yoxdur.

Onda biz, hörmətli həmkarlar, sonuncu məsələyə keçirik. Azərbaycan Respublikası Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası haqqında qərar layihəsinə dair məlumat vermək üçün Hesablama Palatasının auditoru cənab Vüqar İbrahimova söz verirəm. Vüqar müəllim, buyurun.

**Vüqar İbrahimov,** *Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, qeyd etmək istəyirəm ki, Hesablama Palatasının 2026-cı il üçün xərclər smetasının layihəsi cari ildə olduğu kimi, nəticə əsaslı büdcə modelinin prinsipi əsasında

təqdim edilmişdir. Təqdim etdiyimiz layihəyə əsasən 2026-cı ilin dövlət büdcəsində Hesablama Palatasının saxlanması üçün 11,5 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da cari ilin göstəricisi ilə eynilik təşkil edir. Strateji plan üzrə smeta xərclərimizə nəzər salsaq, növbəti ildə bu xərclərin 57 faizi hesabına fəaliyyət istiqamətinin ilk sırasında yer alan audit və analitik fəaliyyət formasında 48 kənar dövlət maliyyə nəzarəti tədbirinin keçirilməsi nəzərdə tutulmuşdur.

Xərclərin 19 faizi hesabına büdcə layihəsi və icrası üzrə 6 rəyin bir yarım illik və bir illik hesabatının hazırlanması nəzərdə tutulur. Dövlət auditinin rəqəmsallaşdırılması, fəaliyyətimizi qabaqcıl təcrübələrə uyğunlaşdırmaq əsas təşəbbüslərimizdən biridir. Cari ildə başlanılan fəaliyyətin növbəti ildə təkmilləşdirilməsi nəzərdə tutulur. “Day” sistemin təkmilləşdirilməsi, IT audit təcrübəsinin gücləndirilməsi və bu istiqamət üzrə digər fəaliyyətlərin maliyyə təminatına xərclərin 5 faizini yönəltmək niyyətindəyik. Xərclərin yerdə qalan hissəsinin isə daxili idarəetmə sisteminin gücləndirilməsinə yönəldilməsini planlaşdırırıq.

Xərclər smetamızın iqtisadi təsnifatının istiqaməti üzrə bölgüsünə nəzər salsaq, xərclər smetamızın ümumi məbləğinin 86,6 faizini əməyin ödənişi xərcləri təşkil edir. Növbəti il üçün xərclər smetamızın 9,3 faizini malların satınalması təşkil edir. Qeyri-maliyyə aktivləri üzrə xərclər artımla proqnozlaşdırılmışdır. Müvafiq maliyyə məlumatlarının vebportal vasitəsi ilə Hesablama Palatasına təqdim olunması, həmin məlumatların icmallaşdırılması, çeşidlənməsi və avtomatik emalı üçün rəqəmsal platforma yaradılmışdır. Bu platforma audit və büdcə prosesi ilə bağlı fəaliyyətin optimallaşdırılmasına, həmçinin keyfiyyətin artırılmasına xidmət edəcəkdir. Nəzərdə

tutulan artım, əsasən, bu və ya digər proqram təminatlarının inkişaf etdirilməsi və genişləndirilməsi məqsədi daşıyır.

Hörmətli millət vəkilləri, dövlət auditinin rəqəmsallaşdırılması fəaliyyətinin maliyyə təminatının bir qədər artırılması üçün xərclər smetamızın, o cümlədən qeyri-maddi aktivlər xərci istiqaməti üzrə cüzi artım olmasını təklif edirik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Biz məlumatı dinlədik.

Hörmətli həmkarlar, xatırladım ki, biz büdcənin üçüncü oxunuşunda bu məsələlərə də səs verəcəyik.

Hörmətli hökumət üzvləri, hörmətli deputatlar, bu gün iclasın gedişində bir sıra çıxışlarda Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümü barədə fikirlər və təbriklər səsləndi. Qeyd edim ki, Milli Məclisdə artıq formalaşmış qaydaya uyğun olaraq, mən adətən təbriklərlə iclası bağlayıram. Bu gün də ənənəyə sadiq olaraq mən bizim təbriklərimizlə iclası bağlayacağam və bir neçə fikirlərimi sizinlə bölüşmək istəyərdim.

Hörmətli həmkarlar, 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizin siyasi həyatının müstəsna əhəmiyyətli hadisələrindən biri olmuşdur. Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası müstəqil dövlətçiliyimizin inkişafında, ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında, milli birlik və həmrəyliyimizin gücləndirilməsində son dərəcə böyük rol oynamışdır.

Hörmətli həmkarlar, son 22 il ərzində möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə partiyamız cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi ictimai-siyasi proseslərin hərəkətverici qüvvəsinə çevrilmişdir. Bildiyiniz kimi, Milli Məc-

lisə seçilmiş deputatların böyük əksəriyyəti də Yeni Azərbaycan Partiyasının üzvləridir. Bu, partiyanın cəmiyyətdə və xalq arasında nə qədər böyük nüfuza malik olduğunu göstərir. Yeni Azərbaycan Partiyası nəinki ölkəmizin, həm də Cənubi Qafqazın ən güclü siyasi təşkilatıdır.

Hörmətli hökumət üzvləri, hörmətli deputatlar, Yeni Azərbaycan Partiyasının yaradılmasının 33 illiyi münasibəti ilə mən partiyamızın sədri cənab İlham Əliyevi, partiya sədrinin birinci müavini hörmətli Mehriban xanım Əliyevanı, partiyanın bütün üzvlərini ürəkdən təbrik edirəm. Xalqa və dövlətə xidmət yolunda onlara yeni uğurlar arzulayıram. *(Alqışlar.)*

**Sədrlik edən.** İndi isə, hörmətli həmkarlar, mən iclasımızı bağlı elan edirəm. Hamıya – hökumət üzvlərinə, hörmətli deputatlar, sizin hamınıza minnətdarlığımı bildirirəm.

Gələn iclasımızın vaxtı sizə deyiləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞIN MƏTNİ

***<u>21 noyabr 2025-ci il</u>***

**Mahir Süleymanov.** Bu gün biz təkcə siyasi tariximizin deyil, həm də milli dövlətçiliyimizin inkişaf yolunun ən mühüm mərhələlərindən birini – Yeni Azərbaycan Partiyasının yaranmasının 33 illiyini böyük qürurla qeyd edirik. Bu əlamətdar gün xalqımızın iradəsini, milli məsuliyyət duyğusunu və dövlətçilik düşüncəsini birləşdirən tarixi siyasi iradənin təcəssümüdür. Məhz həmin taleyüklü çağırışlara cavab olaraq Ümummilli Lider Heydər Əliyev dövlətçilik prinsiplərinə sadiqliyi, müdrikliyi və siyasi iradəsi ilə bu missiyanı qəbul edərək Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verdi.

Yaranmasından qısa müddət sonra YAP geniş xalq etimadı qazanan, milli həmrəyliyi təmin edən və müstəqil dövlətimizin siyasi dirçəlişində həlledici rol o qüdrətli bir siyasi təşkilata çevrildi.

ı gün Ümummilli Liderimizin uzaqgörən ideyalarını k qətiyyətlə həyata keçirən möhtərəm Prezident Ilham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası həm aparıcı siyasi qüvvə, həm də ölkəmizin uzunmüddətli inkişaf strategiyasının əsas müəllifidir. Cənab Prezidentin 2005-ci ildə partiyaya sədr seçilməsi, 2021-ci ildə həyata keçirilmiş modernləşmə və institusional islahatlar YAP-ın idarəetmə modelini daha çevik, səmərəli və strateji hədəflərə uyğun formaya gətirmişdir.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyəti və partiya rəhbərliyində təmsil olunması humanizmə, sosial ədalətə, mədəni dəyərlərə və qadın

liderliyinə verilən yüksək dəyərin bariz ifadəsidir.

Partiyamıza bundan sonrakı fəaliyyətində də uğurlar arzu edirəm.

# MÜNDƏRİCAT

21 noyabr 2025-ci il............................................................ 3
Edilməmiş çıxışın mətni ..................................................... 72

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Beşinci sessiya
Payız

49-cu cild

21 noyabr 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

---

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 4, 5. Sifariş 46. Tiraj 150.